Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 51 (8074) BAZAR, 3 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Ermənistandan böyük etiraf:

# "Kim istəməz ki, İlham Əliyev kimi prezidenti olsun"

### Azərbaycan Prezidentinin milyonlarla insanın problemlərini həll edən son fərmanları ermənilər tərəfindən sosial şəbəkədə geniş müzakirə olunur

**Azərbaycanda uğurla həyata keçirilən və nəticələrinə görə nümunəyə çevrilən sosial siyasət xarici ölkələrdə, o cümlədən də Ermənistanda böyük diqqətlə izlənilir. Bunu erməni mediasına, həmçinin sosial şəbəkələrdə erməni istifadəçilərinin paylaşımlarına nəzər salmaqla da aydın görmək olar.**

Son günlərdə isə erməni tərəfinin diqqət yetirdiyi əsas məsələlərdən biri Prezident İlham Əliyevin fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı fərmanıdır.

Əslində, bununla Azərbaycan daha bir sosial xarakterli nümunə ortaya qoymağı bacardı. Dövlət başçısının fərmanı yüz minlərlə vətəndaşımız üçün böyük dəstəkdir. Bu da onu göstərir ki, Prezident İlham Əliyev köklü sosial islahatları davam etdirir və vətəndaşların sosial rifah səviyyəsini yüksəldərək maddi durumunun yaxşılaşdırılmasına yönəlmiş genişmiqyaslı proqram çərçivəsində inqilabi addım atır.

### "Dollar kreditlərinə görə Ermənistanda evlərini satanlar, intihar edənlər də olub"

Elə erməni tərəfinin də diqqət mərkəzində saxladığı əsas məqamlardan biri məhz budur. Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bəzilərini diqqətə çatdırırıq. Qeyd edək ki, ermənilərin sosial şəbəkələrdə paylaşımları öz dillərində olmaqla yanaşı, həm də ruscadır və biz bundan istifadə etməyə çalışdıq. Onlar paylaşımlarda Dağlıq Qarabağı "Artsax", Xankəndini "Stepanakert" kimi təqdim ediblər. Biz yalnız bu bölgələrin adlarını onların yazdığı kimi yox, tarixi və rəsmi ifadəsi ilə oxucuların diqqətinə çatdırırıq.

✦ **Ruben Azatyan:** "Bizdən fərqli olaraq Azərbaycanda sadə insanların aqibəti haqda düşünürlər. İlham Əliyevin problemli kreditlərlə bağlı fərmanı bunu bir daha göstərir. İlham Əliyev problemli kreditlər üçün büdcədən 500 milyon dollar ayırır. Görəsən, bizdə də nə vaxtsa belə bir hal olacaq? İnanmaq çox çətindir".

✦ **Tatul Qriqoryan:** "Dollar kreditlərinə görə Ermənistanda da çoxları böyük problemlərlə üzləşib. Evlərini satanlar, hətta intihar edənlər də olub. Amma onların taleyi nə əvvəlki hökuməti, nə də indikini maraqlandırır. Amma dünyada və elə öz ətrafımızda yaxşı nümunələr də var. Elə İlham Əliyevin atdığı son addımlara baxmaq yetərlidir".

✦ **Naira Ağacanyan:** "Devalvasiya nəticəsində Ermənistanda əziyyət çəkənlərin sayı milyonlarladır. Lakin onların üzləşdikləri problemləri hökumətdə heç dilə gətirən də yoxdur. Azərbaycanla düşmən olsaq da, onların yaxşı nümunələrinə baxmalıyıq. Bizdə də dövlət büdcəsi hesabına vətəndaşların zərərlərini kompensasiya etmək lazımdı".

✦ **Larisa Tuzmanyan:** "Orada camaatın problemləri barədə düşünürlər. İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı imzaladığı fərman tamam fərqli vəziyyət yaradır. Bu hal istənilən halda təqdir edilməlidir, baxmayaraq ki, Azərbaycanla müharibə aparırıq. Amma orada devalvasiyadan sonra kreditlərini ödəyənlərə də güzəştlər tətbiq edirlər. Niyə biz də belə addımlarla vətəndaşlarımızı sevindirə bilmirik?"

✦ **Ovik Karapetyan:** "Ermənistanda hökumət nəzarətində olan medianın Azərbaycanla bağlı yazdıqları reallığı əks etdirmir. Orada problemli kreditlərlə bağlı verilən fərman birbaşa və dolayısı ilə bütün insanlara təsir edir. Bu da insanlarda dövlətə olan güvəni daha da möhkəmləndirir. Niyə bizdə də belə nümunələr yoxdur? Niyə bizdə də vətəndaş hər zaman dövlətinin onun yanında olduğunu hiss etmir? Ona görə də ölkəni tərk edənlərin sayı durmadan artır".

✦ **Avram Melukunyan:** "Düşmən dediyimiz ölkənin prezidentinin xalqa xidmətinə baxın, bir də bizimkilərin çıxartdığı hoqqalara. 15 ildir müəllim işləyirəm, bir neçə banka borcum var. Deyəsən, o dünyaya da elə borclu gedəcəyəm. Azərbaycanda isə insanların proeblemli kreditləri həllini tapıb. Müqayisəni özünüz aparın".

✦ **Vaxaq Qriqoryan:** "Etiraf edək ki, xalqını düşünən lider İlham Əliyev kimi olar. Biz yeməyə çörək tapmırıq, Azərbaycanda əhalinin kreditlərinə güzəştlər olunur. Səfalət və aclıqdan əziyyət çəkməkdən yorulduq!"

✦ **Stepan Qriqoryan:** "Acı həqiqət olsa da, demək lazımdır. Azərbaycan yenə iqtisadi cəhətdən bizdən çox öndə olduğunu göstərə bildi. İlham Əliyev xalqın yanında olduğunu yenə də nümayiş etdirdi. Belə məsələlər Azərbaycanı daha da gücləndirir".

✦ **Karen Mkrtçyan:** "Bizim ölkədə insanlar aclıqdan ölür, kredit almağa belə imkan vermirlər, düşmən adlandırdığımız İlham Əliyev insanların problemli kreditlərini həll edir. İndi siz özünüz qərar verin, kimdir əsl lider?"

✦ **Robert Şaqinyan:** "Bizim nə vaxt normal bir rəhbərliyimiz olub ki, indi də ola. Elə danışırlar ki, sanki bunlardan yoxdur. Dostlar, acı reallıq olsa da etiraf etmək lazımdır. Kim istəməz ki, İlham Əliyev kimi prezidenti olsun. İstəyirsiniz məni söyün, profilimdən şikayət edin. Fikrimdən dönən deyiləm"

Ruben Azatyan adlı sahibkar özünün "Facebook" səhifəsində yazır: "Bizdən fərqli olaraq Azərbaycanda sadə insanların aqibəti haqda düşünürlər. İlham Əliyevin problemli kreditlərlə bağlı fərmanı bunu bir daha göstərir. İlham Əliyev problemli kreditlər üçün büdcədən 500 milyon dorllar ayırır. Görəsən, bizdə də nə vaxtsa belə bir hal olacaq? İnanmaq çox çətindir".

"Odnoklassniki" sosial şəbəkəsində paylaşılan xəbərə münasibət bildirən, profil səhifəsində bank sektorunda çalışdığını yazan Tatul Qriqoryan adlı istifadəçi isə qeyd edir ki, baş nazir Nikol Paşinyan Prezident İlham Əliyevdən nümunə götürsə idi, yaxşı olardı: "Dollar kreditlərinə görə Ermənistanda da çoxları böyük problemlərlə üzləşib. Evlərini satanlar, hətta intihar edənlər də olub. Amma onların taleyi nə əvvəlki hökuməti, nə də indikini maraqlandırır. Amma dünyada və elə öz ətrafımızda yaxşı nümunələr də var. Elə İlham Əliyevin atdığı son addımlara baxmaq yetərlidir".

### "Azərbaycanla düşmən olsaq da, onların yaxşı nümunələrinə baxmalıyıq"

"İnstagram" sosial şəbəkəsində problemli kreditlərin həlli ilə bağlı paylaşılan şəkilə münasibət bildirən Naira Ağacanyan adlı istifadəçi də eyni mövqeni bölüşür: "Azərbaycanda dövlət əhalinin qalan kredit borcunun ödənilməsi üçün külli miqdarda əlavə vəsait ayırır. Bu addım əhaliyə çox müsbət təsir göstərəcək. Ancaq təəssüf ki, bizdə tamam fərqli mənzərə hökm sürür. Devalvasiya nəticəsində Ermənistanda əziyyət çəkənlərin sayı milyonlarladır. Lakin onların üzləşdikləri problemləri hökumətdə heç dilə gətirən də yoxdur. Azərbaycanla düşmən olsaq da, onların yaxşı nümunələrinə baxmalıyıq. Bizdə də dövlət büdcəsi hesabına vətəndaşların zərərlərini kompensasiya etmək lazımdı".

*Ardı 3-cü səh.*

## Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Rumen Radevə

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Bolqarıstan əlaqələri, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2019-cu il*

## Prezident mədəni inkişaf məsələlərini ziyalılarla müzakirə etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşdülər.



Həm fərdi qaydada, həm müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında ölkəmizin görkəmli mədəniyyət xadimləri ilə dövlət başçısının bir çox görüşləri olub. Bu dəfə isə daha geniş formatda görüş keçirildi. Prezident İlham Əliyev respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoyduğu, bütün sahələrdə çox ciddi islahatlar aparıldığı bir vaxtda buna ehtiyac olduğunu xüsusi vurğuladı.

Dövlət başçısı islahatların yeni mərhələsinin anonsunun keçən il prezident seçkilərindən sonra verildiyini, bu istiqamətdə çox fəal iş aparıldığını və bu ilin əvvəlindən genişmiqyaslı islahatların həyata keçirildiyini qeyd etdi. Bildirdi ki, bu islahatlar bütün sahələri əhatə edəcək: "İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan, 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır".

İlin uğurlu başladığını, iqtisadi sahədə həyata keçirilən islahatların gözəl nəticələr verdiyini söyləyən Prezident İlham Əliyev bu ilin birinci ayının yüksək göstəricilərini nəzərə çarpdırdı. İqtisadiyyatımızın demək olar ki, tamamilə bərpa edildiyini vurğulayan ölkə rəhbəri iqtisadi inkişaf baxımından bu il çox ciddi nəticələr olacağına əminliyini ifadə etdi.

*Ardı 2-ci səh.*

## 800 min nəfərin kredit problemi həll olundu

### Prezident ölkənin maliyyə imkanlarından xalqın mənafeyi üçün istifadə olunduğunu bir daha nümayiş etdirdi

**Prezidentin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı imzalandığı andan böyük ictimai rezonansa səbəb oldu.**

Artıq neçə gündür ki, ölkə ictimaiyyəti, o cümlədən iqtisadçılar, analitiklər dövlət başçısının fərmanı ilə bağlı geniş müzakirələr aparır, minlərlə sadə insan Prezidentin bu addımını yüksək qiymətləndirirlər. Müxtəlif maliyyə və iqtisadi qurumları təmsil edən aparıcı mütəxəssislər, ekspertlər, dövlət məmurları müzakirələrə qoşulur, Azərbaycan Prezidentinin dünya təcrübəsində nadir rast gəlinən fərmanına münasibət bildirirlər.

Aydın görünəni odur ki, Azərbaycanda əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqaməti kimi qalmaqdadır. Dövlət başçısı İlham Əliyev əhalinin rifah halını yüksəltmək məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir, iqtisadi və institusional islahatları reallaşdırır, yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təminatını və gəlirlərinin artmasını diqqət mərkəzində saxlayır.

*Ardı 3-cü səh.*

## Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinin böyük hissəsi energetika sektorunun payına düşür

### İkitərəfli əməkdaşlığın digər sahələrdə də inkişafı üçün böyük perspektivlər var

**Azərbaycan və Gürcüstan əsrlər boyu mehriban qonşuluq, etibarlı dostluq şəraitində yaşayıblar. Yenə də belədir və iki ölkə bütün sahələrdə bir-biri ilə sıx əməkdaşlıq edir.**

Bu əməkdaşlığın böyük hissəsi iqtisadiyyat sahəsinin payına düşür. Gürcüstan Prezidenti Salome Zurabişvilinin ölkəmizə rəsmi səfəri zamanı keçirilən görüşlərdə və aparılan söhbətlərdə bu, dəfələrlə vurğulandı.

Energetika sektorundakı əməkdaşlıq və tərəfdaşlıq xüsusi önəm kəsb edir. Hələ 1999-cu ildə istifadəyə verilən Bakı-Supsa neft kəməri gələcək, daha böyük layihələrin ilki oldu. Bu kəmər indi də Azərbaycan neftini Xəzərin sahilindəki Səngəçal terminalından Qara dənizin Supsa limanınadək ahəngdar və təhlükəsiz nəql edir.

2006-cı ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin istifadəyə verilməsi Azərbaycan-Gürcüstan əlaqələrinin yeni mərhələsinə çevrildi.

*Ardı 6-cı səh.*











*Əvvəli 1-ci səh.*

# Prezident mədəni inkişaf məsələlərini ziyalılarla müzakirə etdi

İndiyədək bütün sahələrdə həyata keçirilən islahatları nəzərə çatdıran Prezident mədəni inkişaf məsələlərini ziyalılarla müzakirə etdi. Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafı naminə teatrlarımızın, muzeylərimizin əsaslı təmir edildiyini, yenilərinin tikildiyini vurğuladı.

Həmçinin dini abidələr əsaslı şəkildə təmir edilib. Bakıda və bölgələrdə yüzlərlə məscid bərpa olunub. Onların arasında böyük mənəvi əhəmiyyət daşıyan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidləri, Gəncədəki İmamzadə dini-tarixi kompleks, Azərbaycanın ən qədim məscidi - 743-cü ildə tikilən Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edilib, Heydər Məscidi tikilib.

İlk qərarlarından birinin də Azərbaycan klassiklərinin əsərlərinin latın qrafikası ilə çap etdirilməsi olduğunu vurğulayan Prezident İlham Əliyev o zamankı vəziyyəti də xatırlatdı: “Biz tam olaraq latın qrafikasına keçmişdik və təhsil də latın qrafikası ilə aparılırdı. Ancaq bizim bütün klassiklərimizin kitabları vaxtilə kiril qrafikası ilə çap olunmuşdu. Ona görə şagirdlər, tələbələr onları oxuya bilmirdilər. O vaxt bizim o qədər də maddi imkanlarımız yox idi. 2004-cü ildə biz bu qərara gəldik. Baxmayaraq ki, maddi vəziyyətimiz çox məhdud idi, biz qısa müddət ərzində bunu da etdik. Nəinki Azərbaycan klassiklərinin, dünya ədəbiyyatının klassiklərinin kitabları latın qrafikası ilə çap olundu”.

Kinoteatrların yaradılmasını, özəl kinoteatrların fəaliyyətə başlamasını dövlət rəhbəri sevindirici hal kimi dəyərləndirdi. Prezidentin görüşdə vurğuladığı kimi, ötən müddət ərzində Nizami Kino Mərkəzi əsaslı şəkildə təmir edildi. Görkəmli mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək üçün abidələr qoyuldu. Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və başqa görkəmli mədəniyyət xadimlərimizin xatirəsi əbədiləşdirildi. İki konservatoriyamızdan biri əsaslı şəkildə təmir edildi, digəri isə yenidən tikildi.

İndiyədək mədəniyyət sahəsində görülən işlər çox olsa da, qarşıda yeni işlər var. Prezident İlham Əliyev görüşdə iştirak edən mədəniyyət və incəsənət xadimlərinə müraciət etdi: “Bundan sonra hansı işlər görülməlidir, bunu siz deməlisiniz. Çünki mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün. Biz bu məsələlərlə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq”. Bu məsələlərə daha da geniş kontekstdə baxılmasını mühüm hesab edən ölkə rəhbəri vacib məqamlara diqqəti yönəltdi: “Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz”.

Gənc nəslin milli ruhda tərbiyə olunmasına böyük əhəmiyyət verən dövlət başçısı mədəniyyət və incəsənət xadimləri ilə görüşdə də bildirdi ki, bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün əsas amil isə Prezident İlham Əliyevin söylədiyi kimi, bizim mədəniyyətimiz, incəsənətimiz, ədəbiyyatımız, ana dilimiz, milli təfəkkürümüzdür.

Görüşdə çıxış edən xalq yazıçısı Anar, xalq artistləri Firəngiz Əlizadə, Arif Babayev, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, Hacı İsmayılov, xalq rəssamı Tahir Salahov və başqaları həyata keçirilən işlərin uğurlu nəticələrindən söz açdılar, Azərbaycan mədəniyyətinin, incəsənətinin bundan sonrakı inkişafı naminə görəcəkləri işlərdən danışdılar və təkliflərini söylədilər.

Mədəniyyətimizin inkişafı ilə bağlı aparılan işlərə yekun vuran dövlət başçısı, qarşıdakı vəzifələri də müəyyənləşdirdi.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 79-cu kitabı çapdan çıxıb

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 79-cu kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin martından may ayınadək olan dövrü əhatə edir.

Həmin dövrdə Azərbaycanın evsahibliyi etdiyi tədbirlərdən biri V Qlobal Bakı Forumu olub. Forumun 2017-ci il martın 16-da keçirilən açılış mərasimində Azərbaycanın regionda və dünyada güclü mövqeyə malik olduğunu vurğulayan dövlət başçısı deyib: “Beynəlxalq ictimaiyyət bizə hörmətlə yanaşır. Çünki biz müstəqil siyasət aparırıq və hər zaman vədlərimizə sadiqik. Yəni biz etibarlı tərəfdaşıq və bütün qonşular ilə yaxşı, eyni zamanda, praqmatik əlaqələr qura bilmişik. Bu əlaqələr tarix, dostluq, qarşılıqlı maraq, qarşılıqlı hörmət, habelə bir-birinin işlərinə müdaxilə etməmək prinsiplərinə söykənir.

Regional əməkdaşlıq və bütün qonşularımız ilə münasibətlərimiz bizim üçün mühüm əhəmiyyət kəsb edir. Məncə, bunu hər bir ölkəyə şamil etmək olar. Bir dövlətin qonşusu ilə hər hansı bir problemi varsa, burada hər iki tərəf əziyyət çəkir. Bu səbəbdən Ermənistan istisna olmaqla, bizim bütün qonşularımız ilə çox yaxşı əlaqələrimiz var. Biz çoxlu sayda enerji, nəqliyyat, ticarət və mədəniyyət layihələri həyata keçiririk ki, onlar xalqlarımızı daha da yaxınlaşdırır”.




Kitaba Prezident İlham Əliyevin Fransa və İrana səfərləri, Bakıya səfər etmiş Qazaxıstan Prezidenti ilə apardığı danışıqlar barədə materiallar, imzalanan sənədlər, dövlət başçılarının mətbuata bəyanatları haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Böyük Britaniya, Səudiyyə Ərəbistanı, Fransa və digər dövlətlərin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallarla da tanış ola bilər.

Çoxcildliyin 79-cu kitabında Prezident İlham Əliyevin Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə, “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start mərasimində, Bakı Ali Neft Məktəbinin yeni şəhərciyinin açılışında, Novruz bayramı münasibətilə İçərişəhərdə təşkil olunan bayram şənliyində çıxış və nitqlərinin mətnləri toplanıb.

Bu nəşrdə dövlət başçısının Saatlı rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində, həmçinin Yevlax rayonunda qeyri-neft ixracatçılarının respublika müşavirəsində, Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqlərinin mətnləri də yer alıb.

Kitaba Prezident İlham Əliyevin “İslamın həmrəyliyi - zamanın çağırışı” beynəlxalq konfransın, Qafqazşünaslıq I Beynəlxalq Forumunun, “XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları” IV beynəlxalq elmi konfransın iştirakçılarına məktubları və digər məktublar daxil edilib.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 79-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Yasamal rayonunda Novruz yarmarkası açılıb



Martın 2-də Yasamal rayonunda Hüseyn Cavid prospektində, Azərbaycan Milli Elmlər Akademiyasının binasının qarşısındakı parkda Novruz yarmarkası açılıb.

AZƏRTAC xəbər verir ki, yarmarkada respublikamızın müxtəlif bölgələrindən olan fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edirlər. Məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunur.

Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev yarmarkanın fəaliyyəti ilə tanış olub. Satıcılarla, fermerlərlə söhbət edən Zeynal Nağdəliyev onlara yaradılan şəraitlə, satışa çıxarılan məhsulların qiymətləri ilə maraqlanıb. Qeyd edib ki, dövlət başçısının tapşırığı əsasında təşkil edilən bu yarmarkalarda məqsəd fermerlərin, sahibkarların öz məhsullarını əlverişli şəraitdə yarmarkada sata bilmələri, əhalinin isə ucuz qiymətə bu məhsulları almasıdır. Yarmarkalarda qiymət bazarlardakından xeyli ucuzdur.

Yarmarka ilə tanışlıq zamanı bildirilib ki, ölkəmizdə aqrar sahəyə, o cümlədən fermerlərə göstərilən dövlət dəstəyi əhalinin məşğulluğunun təmin olunması, insanların sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, həm də məhsul bolluğu yaradır. Belə tədbirlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında, süni qiymət artımının qarşısının alınmasında və istehlakçıların seçim imkanlarının artırılmasında mühüm rol oynayır.

Kənd təsərrüfatı məhsullarının satış yarmarkaları da bu məqsədə xidmət edir. Yarmarkada satıcı və alıcıların rahatlığının təmin olunması üçün əlverişli ticarət mühiti yaradılıb. Fermerlər, sahibkarlar və kənd təsərrüfatı məhsulları istehsalçıları məhsullarını satmaq üçün yarmarkaya gətirir və münasib qiymətlərlə alıcılara təklif edirlər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi ilə birgə əhalinin tələbatı nəzərə alınaraq Bakı şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında respublikanın 42 rayonundan 52 adda məhsul çıxarılacaq.

# *ZEYNAL NAĞDƏLİYEV:* “Yarmarkalarda satışa çıxarılan məhsullar bazar qiymətlərindən 30-40 faiz ucuzdur”

“Novruz bayramı ilə əlaqədar keçirilən yarmarkalarda satışa çıxarılan məhsullar bazar qiymətlərindən 30-40 faiz ucuzdur”.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev martın 2-də paytaxtın Hüseyn Cavid prospektində təşkil olunmuş yarmarkada jurnalistlərə açıqlamasında məlumat verib. Prezidentin köməkçisi deyib ki, dövlət başçısı İlham Əliyevin birbaşa tapşırığı əsasında paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək. Yarmarkalarda satışa çıxarılan əksər məhsullar topdansatış qiymətindən 20 faiz, bazar qiymətlərindən isə 30-40 faiz ucuzdur. Həmçinin yarmarkalarda satışa çıxarılan bəzi məhsulların qiyməti bazar dəyərindən 2 dəfədən çox aşağıdır.

Zeynal Nağdəliyev qeyd edib ki, yarmarkalarda çeşidlər daha da genişləndirilməli və keyfiyyət məsələsi də diqqətdə saxlanılmalıdır. Təşkil edilən bu yarmarka əhalinin bayram əhvali-ruhiyyəsinə müsbət təsirini göstərəcək. Bu, dövlət başçısının xalqımızın rifahı üçün atdığı növbəti addımdır.

# Maştağa qəsəbəsi sakinlərinin problemləri dinlənilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Sabunçu rayonu, Maştağa qəsəbəsinin sakinləri ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüş sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunub.

Görüşdə çıxış edən Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi sakinlərlə ilk görüşünü məhz böyük tarixə malik Maştağa qəsəbəsində keçirdiyini bildirib.

Bu gün paytaxtımızın sürətlə inkişaf etdiyini, onun müasir görkəm aldığını vurğulayan icra hakimiyyətinin başçısı bildirib ki, Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamların, qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Bakı şəhəri və onun qəsəbələrində xeyli sayda yeni məktəb, uşaq bağçası, tibb müəssisələri tikilib, köhnələri əsaslı təmir olunub. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilən “Abad məhəllə” layihəsi çərçivəsində son 6 ay ərzində 50-dən çox məhəllə əsaslı təmir olunub və bu işlər hazırda da davam etdirilir. Həmçinin paytaxtımızdakı çoxmənzilli binaların dam örtükləri, girişləri, fasadları əsaslı təmir olunur. “Dövlətimizin başçısı qarşıya paytaxtın qəsəbələrinin də daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq qoyub.



Prezident İlham Əliyevin tapşırığı əsasında Bakı şəhəri və onun qəsəbələrinin inkişafı ilə bağlı xüsusi proqram hazırlanır” - deyə icra başçısı vurğulayıb.

Azərbaycan Prezidenti tərəfindən əhalinin sosial təminatının gücləndirilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində imzalanan yeni fərman və sərəncamlar barədə danışan icra başçısı bildirib ki, dövlət başçısının həyata keçirdiyi sosial siyasətin, bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır.

Sonra Sabunçu Rayon İcra Hakimiyyəti başçısının Maştağa qəsəbəsi üzrə nümayəndəsi Şamil Alıyev qəsəbədə görülmüş işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib. Qeyd edib ki, dövlət başçısının düşünülmüş siyasəti sayəsində Azərbaycan sürətlə inkişaf edir, yeni sənaye sahələri yaradılır, insanların rifah halı gündən-günə yaxşılaşır.

Maştağanın Sabunçu rayonunun ən böyük qəsəbələrindən biri olduğunu bildirən Şamil Alıyev buradakı mövcud infrastruktur obyektləri, tarixi abidələr barədə ətraflı məlumat verib. Bildirib ki, son illər bütün ölkə ərazisində olduğu kimi, qəsəbədə də təhsil, səhiyyə, sənaye və digər sahələrdə mühüm nailiyyətlər əldə edilib.

“Açıq mikrofon” formatında sakinlərin böyük fəallığı ilə keçən görüşdə çıxış edən maştağalılar Bakı şəhərində, eyni zamanda, Maştağa qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlət başçısının həyata keçirdiyi siyasi kursa dəstək ifadə ediblər.

Görüşdə 35 nəfər sakin çıxış edib, onları narahat edən məsələlər dinlənilib və müvafiq tapşırıqlar verilib.

Bu kimi görüşlərin digər qəsəbələrdə də keçirilməsi nəzərdə tutulub.

# *Elmar MƏMMƏDYAROV:* “Azərbaycan Fələstin xalqının sülh uğrunda mübarizəsini dəstəkləyir”

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 46-cı sessiyası çərçivəsində BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinin (UNRWA) rəhbəri Pyer Krahenbul ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Pyer Krahenbulu BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinin yenidən rəhbəri seçilməsi münasibətilə təbrik edib, ona yeni dövr fəaliyyətində uğurlar arzulayıb. Nazir Elmar Məmmədyarov Azərbaycanın qardaş Fələstin xalqının sülh, sabitlik və dayanıqlı inkişafa nail olmaq yolunda mübarizəsində dəstəklədiyini vurğulayaraq ölkəmizin Fələstin məsələsinin, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla, “iki dövlət” həllini davamlı olaraq dəstəklədiyini ifadə edib. Həmçinin nazir Elmar Məmmədyarov Qüds ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mövcudluğunu xatırladıb.

BMT Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinin rəhbəri Pyer Krahenbul, öz növbəsində, səmimi təbrikə görə təşəkkürünü bildirib, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi münasibətilə nazir Elmar Məmmədyarovu təbrik edib. Sonra P.Krahenbul ABŞ tərəfindən UNRWA-ya edilən yardımların dayandırılmasından sonra İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr tərəfindən göstərilən yardımları yüksək qiymətləndirib və bu xüsusda, Azərbaycan tərəfinə Agentliyin fəaliyyətinə verdiyi dəstək və maliyyə yardımı üçün təşəkkürünü bildirib. Fələstin münaqişəsinin həlli ilə bağlı fikirlərini bölüşən P.Krahenbul münaqişənin həllinin 5 milyon fələstinli qaçqının probleminin həllinə zəmin yaradacağını vurğulayıb.

Tərəflər arasında, həmçinin qarşılıqlı maraq və narahatlıq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Gənclər siyasətində əsaslı dönüş yaradacaq qanun layihəsi hazırlanıb

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Konstitusiyanın 96-cı maddəsini rəhbər tutaraq "Gənclər siyasəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim edib. Qanun layihəsi parlamentdə 2-ci oxunuşda qəbul olunub.



Təklif edilən dəyişikliklər olduqca mühüm, zəruri, aktualdır, cari dövrün tələbatından irəli gəlir. Müzakirəyə çıxarılan dəyişikliklər gənc nəslin fiziki və mənəvi sağlamlığına, gənclərin ölkədə, cəmiyyətdə layiqli yer tutmasına, onların bütün problemlərinin tez həll olunmasına daha münbit şərait yaradır.

Təklif olunan dəyişiklikləri zəruri edən Prezidentin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında nəzərdə tutulmuş Tədbirlər Planıdır. Qanunun elə ilk maddəsinə yeni müddəalar əlavə edilərək, onun əsas anlayışları daha da genişləndirilib və "sosial müdafiəyə ehtiyacı olan gənclər", "risk qrupunda olan gənclər", "gənc alim və tədqiqatçı", "tələbə özünüidarəetməsi", "gənclərin könüllü fəaliyyəti" kimi anlayışlara müvafiq təfsirlər verilib.

Məsələn, müəyyən edilir ki, gənclərin könüllü fəaliyyəti - gənclərin "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı fəaliyyət növüdür. Gənc alim və tədqiqatçı kimi yaşı 35-dən çox olmayan alim və tədqiqatçılar müəyyənləşdirilir və s.

Qanun layihəsinin "Gənclər siyasətinin məqsəd və prinsipləri" adlanan üçüncü maddəsinə üç yarımbənd əlavə edilir ki, onlar günümüzün reallıqlarından irəli gələrək gənclərin maraq və ehtiyaclarının nəzərə alınmasını, onlara aid siyasətin formalaşmasında, həyata keçirilməsində və qiymətləndirilməsində bilavasitə gənclərin özlərinin iştirakını təmin edir, gənclərin təhsili və məşğulluğunun təmin edilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir.

"Gənclər siyasətinin həyata keçirilməsi sahəsində dövlətin vəzifələri" adlanan 4-cü maddəyə də çox əhəmiyyətli dəyişikliklər təklif edilib. Belə ki, gənclərin peşə hazırlığı, məşğulluğunun təmin olunması ilə yanaşı, sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi sahəsində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Gənclərin bu və ya digər sahələrdə maarifləndirilməsi məsələlərinə çox böyük əhəmiyyət verilir və bununla əlaqədar kadrların hazırlanmasının, o cümlədən gənclərlə işin təhlili, planlaşdırılması, təşkili və qiymətləndirilməsi üzrə mütəxəssislərin hazırlanmasının və əlavə təhsilinin təmin olunması, bu məqsədlə mütəmadi təlimlərin təşkili layihənin ayrıca yarımbəndində əksini tapıb.

Gənclər siyasətinin həyata keçirilməsi sahəsində dövlətin vəzifələri genişləndirilərək, buraya aztəminatlı gənc ailələrin sosial müdafiəsi, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsi, gənclərin sosial-iqtisadi və mədəni inkişafı üçün tədbirlərin həyata keçirilməsi, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin sosial, mənzil, təhsil problemlərinin həlli və asudə vaxtlarının səmərəli keçirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, gənclər arasında könüllülük fəaliyyətinin təşviqi, hər növ ekstremizmin və radikalizmin qarşısının alınması kimi məsələlər salınıb. Gənclərin fərdi inkişafı üçün qeyri-formal və informal təhsilalma imkanlarının yaradılması, gənclərin inkişafı, yeni biliklərə yiyələnməsi məqsədi ilə informasiya texnologiyaları, sosial şəbəkə və multimedia vasitələrindən istifadə sahəsində imkanların artırılması, bu sahədə qanunvericiliyin tələblərinə riayət edilməsinə, insanların şərəf və ləyaqətlərinin və şəxsi həyatın toxunulmazlığı hüququnun qorunmasına nəzarətin təmin edilməsi də dövlətin vəzifələrinə daxil edilib.

Qanun layihəsində xüsusi diqqət gənclərin mənəvi-əxlaqi tərbiyəsinə, xüsusi və mədəni həyatda iştirakına yönəlmişdir. Yaradılacaq "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsində risk qrupunda olan gənclərə xidmətlər göstərilməsi, onların hüquqi və sosial-psixoloji yardımla təmin edilməsi, aktiv məşğulluq tədbirlərinə cəlb olunmasına kömək göstərilməsi, sosial-psixoloji reabilitasiya kursunun təşkil edilməsi, cəzaçəkmə müəssisələrindən azad edilmiş gənclərin sosial adaptasiya mərkəzlərinə yerləşdirilməsinə kömək göstərilməsi, risk qrupunda olan gənclərlə könüllülər arasında qarşılıqlı yardım qruplarının təşkil edilməsi kimi vəzifələr nəzərdə tutulur.

Xüsusi əhəmiyyət kəsb edən "Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı" başlıqlı 7-ci maddədir. Burada gənclərin fiziki və reproduktiv sağlamlığının qorunması, pulsuz tibbi müayinə və gənclər arasında zərərli vərdişlərə qarşı təbliğat və sağlam həyat tərzi ilə bağlı maarifləndirmənin həyata keçirilməsi nəzərdə tutulur.

Gənclərin məşğulluğunun təmin edilməsi, gənc ailələrə və gənclər təşkilatlarına dövlət yardımı və layihədə əksini tapmış digər dəyişikliklər və əlavələr xüsusi önəm daşıyır.

İnternet məkanında gənclərimizin fəaliyyəti haqqında düşünürəm ki, ayrıca danışmalıyıq. Sosial şəbəkələr müasir dövrün ən mühüm yenilik və nailiyyətlərindən biridir, insan həyatı və münasibətlərinə ciddi təsir göstərən, hətta onların xarakterində dəyişikliklərə səbəb olan bir amildir. Sosial şəbəkələr insanlar arasında məkan və məsafə məfhumunu aradan qaldırır, bir-birindən minlərlə kilometr aralıda olan fərdlərlə asanlıqla təmasa girmək, həm ictimai məzmunlu fəaliyyətdə olmaq və müzakirələr aparmaq, həm də şəxsi əlaqələr qurmaq üçün geniş meydan açır. Bu baxımdan sosial şəbəkələri XXI əsrin unikal imkanı kimi dəyərləndirmək olar.

Azərbaycan hakimiyyəti və şəxsən ölkə Prezidenti sosial medianın qeyd olunan müsbət cəhətlərini nəzərə alaraq bu sahədə tam azadlıq və sərbəstliyi təmin etmişdir. Hələ bir neçə il əvvəl Prezident İlham Əliyev beynəlxalq informasiya agentliklərinin V konqresinin iştirakçıları ilə görüşdə söz və mətbuat azadlığı ilə bağlı ölkəmizə yönəlik iddiaları qətiyyətlə rədd edərək demişdi: "Ölkəmizdə əgər azad internet fəaliyyət göstərirsə, senzura yoxdursa, əhalinin 75 faizi internet istifadəçisidirsə, mətbuat azadlığının məhdudlaşdırılmasından necə danışmaq olar?! Əgər sosial şəbəkədə - "Facebook"da və "Twitter"də 2 milyon insanımız varsa, mətbuat azadlığını necə məhdudlaşdırmaq olar?!"

Şübhə yoxdur ki, bu sözlərin deyilməsindən keçən iki ildən də artıq müddət ərzində Azərbaycanda həm internet, həm də sosial şəbəkə istifadəçilərinin sayı bir qədər də artmışdır. Halbuki bu azadlıq heç də dünyanın bütün ölkələrində təmin edilmir. Bir sıra ölkələrdə bu və ya digər səbəblərdən sosial şəbəkələrə çıxışa tam və ya qismən məhdudiyyətlər tətbiq olunur. Azərbaycanda da zaman-zaman bununla bağlı haqlı narahatlığa söykənən müəyyən çağırışlar səslənsə də, Prezident İlham Əliyev azad internetin və sosial şəbəkələrin sərbəst fəaliyyətinin prinsipial tərəfdarı kimi çıxış edir. Təəssüflər olsun ki, dövlət başçısının dövlətimiz və cəmiyyətimiz üçün böyük və strateji əhəmiyyət daşıyan bu mövqeyi heç də bütün vətəndaşlar tərəfindən düzgün qiymətləndirilmir, yaradılmış imkandan sui-istifadə edən fərdlərə və qruplara rast gəlinir. Bir sıra hallarda isə bütün mənəvi-əxlaqi çərçivələrin aşılması ilə təhqirin, söyüşün baş alıb getdiyini görürük ki, buna heç bir vəchlə biganə qalmaq olmaz.

Hazırda sosial şəbəkələr informasiya müharibəsinin, ideoloji mübarizənin meydanına çevrilib. Müharibə şəraitində olan bir ölkə kimi Azərbaycanın sosial şəbəkə istifadəçiləri də bu istiqamətdə səmərəli fəaliyyət göstərməyə çalışmalıdırlar. Lakin bəzi üzdəniraq sosial şəbəkə fəalları bunun əvəzinə daxildəki ən kiçik problemləri belə şişirdərək ölkəmizi gözdən salmaqla, bu azmış kimi, dövlət və hökumət rəhbərliyini, ölkə parlamentini hədəfə almaqla, necə deyərlər, düşməni sevindirmək, onun əlinə bəhanə vermək xətti tutmuşlar.

Əlbəttə, hər bir sosial şəbəkə istifadəçisinin istənilən dövlət qurumunun işində rastlaşdığı çatışmazlıqları tənqid etmək, qarşılaşdığı neqativ halları ictimaiyyətə çatdırmaq hüququ var və buna ölkəmizdə heç bir məhdudiyyət qoyulmur. Əksinə, çoxsaylı faktlar var ki, məhz sosial şəbəkələrdə bu və digər dövlət orqanının, vəzifəli şəxsin işindəki nöqsanlarla bağlı tənqidlərə adekvat reaksiya verilmiş və problemlər operativ surətdə aradan qaldırılmışdır. Lakin bəziləri bu imkandan da yararlanmaq istəməyib açıq təhqirlər yağdırmaq, qarşıdurma yaratmaq, ictimai aqressiyaya rəvac vermək yolu ilə getməyi üstün tuturlar. Onlar bununla istər-istəməz Azərbaycanın düşmənlərinin maraqlarına xidmət etmiş olurlar, çünki sirr deyil ki, ölkəmizdəki sabitlik və davamlı inkişaf bir çox xarici qüvvələri, ilk növbədə bədnam qonşumuzu narahat edir. Ona görə sosial şəbəkələrdən söyüş və təhqir maşını kimi istifadə edərək ölkəmizin adına xələl gətirənlər düşmənin onların hərəkətlərindən məmnunluğunu görməli, dayanıb düşünməli və öz davranışlarına yenidən baxmalıdırlar.

Odur ki, təqdim olunan yeni qanun layihəsində internet məkanına aid məsələlərin əksini tapması olduqca vacibdir. Bu baxımdan layihənin 5.8 bəndini xüsusi qeyd etmək istərdim. Bu bənd müvafiq icra hakimiyyəti orqanları tərəfindən 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsini, onların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan zərərli informasiyalardan qorunmasını təmin etmək məqsədi ilə "təhlükəsiz internet" mexanizminin yaradılmasını nəzərdə tutur. Növbəti bənd isə müvafiq icra hakimiyyəti orqanları, kütləvi informasiya vasitələri, televiziya və radio yayımçılarının sosial media vasitəsi ilə gənclərdə vətənpərvərlik, milli və ümumbəşəri dəyərlərə hörmət hisslərinin, dövlətçilik prinsiplərinə sadiqliyin gücləndirilməsi, tolerantlığın və multikulturalizmin təbliği məqsədi ilə dövlət rəmzləri, ölkə və dünya tarixi, mədəniyyəti, tarixi şəxsiyyətlər, milli qəhrəmanlar haqqında maarifləndirici layihə və proqramlar, elmi-populyar verilişlər hazırlayıb həyata keçirilməsini vəzifə kimi müəyyənləşdirir.

Son olaraq vurğulamaq istərdim ki, bütövlükdə təklif olunan dəyişikliklər dövlət gənclər siyasətini təkmilləşdirərək, onu dövrün tələblərinə uyğun optimallaşdıracaq və bu çox vacib, dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən sahədə əsaslı dönüş yaradacaq.

***Gövhər BAXŞƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik***

# Sözünə bütöv lider nümunəsi

## İlham Əliyev xalqın öz rəhbərinə güvənməyində haqlı olduğunu bir daha sübut etdi

**Azərbaycanda əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətidir.**

**Prezident İlham Əliyevin son 2 ayda böyük sosial islahatlar paketi çərçivəsində əhalinin rifah halını yüksəltmək məqsədilə imzaladığı fərman və sərəncamlar xalq tərəfindən çox yüksək dəyərləndirilməkdədir. Fevralın 28-də dövlət başçısı problemli kreditlərin həlli istiqamətində imzaladığı fərmanla bir daha xalqa xidmətin ən yüksək nümunəsini göstərdi.**

**Siyasətçilər, iqtisadçılar da hesab edirlər ki, Prezident İlham Əliyev sosial islahatlar paketi çərçivəsində xalqın mənafeyinə uyğun hələ çox sənədlər imzalayacaq.**





### Xalq İlham Əliyevə alqış edir

Milli Məclisin İnsan haqları komitəsinin üzvü **Flora Qasımova** deyir ki, Azərbaycan Prezidenti son 15 ildə ölkəmizi qüdrətli dövlətə çevirmək üçün əlindən gələni edib. Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Xalqın böyük etimad göstərdiyi cənab İlham Əliyev verdiyi bütün vədlərə əməl edib: "Bu sözünə bütöv olan lider nümunəsidir. Prezident İlham Əliyev nə söz verirsə, mütləq onu reallaşdırır. Ona görə də xalq hər zaman Prezidentin arxasındadır. Cənab İlham Əliyev əhalinin rifah halını yüksəltmək məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər, sosial-iqtisadi və institusional islahatlar həyata keçirir. Bütün bunlar vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına xidmət edir, əhalinin məşğulluğunun və gəlirlərinin artmasını təmin edir".

Deputatın sözlərinə görə, dövlət başçısı bütün sahələr üzrə - aztəminatlı ailələrin, pensiyaçıların, tələbələrin, şəhid ailələrinin, məcburi köçkünlərin müavinət və təqaüdlərini artırmaqla bir daha göstərdi ki, siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Probemli kreditlərlə bağlı fərman isə insanlarda böyük sevinc yaradıb: "Bir milyona yaxın insanın problemi həll olunur. Bu qədər ailələr cənab Prezidentə alqış edir. Maaşları, təqaüdləri, müavinətləri artan insanlar bir daha əmin olurlar ki, dövlət və onun qətiyyətli lideri xalqın yanındadır. Cənab İlham Əliyev xalqın öz liderinə güvənməyində haqlı olduğunu bir daha sübut etdi".

### İlham Əliyevin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan haqları komitələrinin üzvü, Vəhdət Partiyasının sədri **Tahir Kərimli** isə hesab edir ki, Azərbaycan Prezidentinin islahatları sistemli və konseptual xarakter daşıyır. İki ilə yaxındır ki, cənab Prezident islahatların anonsunu verirdi. Budur, həmin proseslərə artıq start verilib: "Prezidentin göstərişi ilə 11 istiqamət üzrə strateji yol xəritələri qəbul edildi və bu sənədlər bütün sahələri əhatə etdi. Bundan sonra dövlət başçısı iqtisadi və sosial islahatlara başladı. Hesab edirəm ki, cənab İlham Əliyev ötən illər ərzində həyata keçirdiyi müstəqil siyasətlə, güclü iqtisadiyyatla dövlətin bünövrəsini möhkəmlədirdi. Azərbaycan iqtisadiyyatı sürətli inkişaf mərhələsinə qədəm qoydu. Bu müddət ərzində ölkədə sənayenin, aqrar sektorun inkişafına təkan verildi, kənd təsərrüfatının inkişafı istiqamətində mühüm sənədlər qəbul edildi, Azərbaycan Şimal-Cənub, "Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi"nin iştirakçısı kimi üzərinə düşən işləri həll etdi və ən böyük liman kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" kimi beynəlxalq əhəmiyyətli layihələri reallaşdırmaqla qüdrətli dövlətə çevrildi.

İndi isə Azərbaycan güclü dövlətə çevrildiyi üçün dövlət başçısı istiqaməti dəyişib - zəngin dövlət, zəngin cəmiyyət və zəngin insan... Bu zəncir davam edir. Hər bir insan həyatında bu yeniliyi görür, hiss edir".

Deputatın fikrincə, torpaqlarının 20 faizi işğalda olan bir dövlətin tək yanvar ayında qeyri-neft sektorundakı 14 faiz artımı heç bir ölkədə baş verə bilməzdi. Azərbaycan dünyaya bununla nümunə götərir.

Dövlət başçısının sosial islahatlarının hələ davam edəcəyini söyləyən Tahir Kərimli hesab edir ki, xalq yalnız öz Prezidentinə güvənir: "Bu gün Prezidentin sosial islahatları hər kəsi sevindirir. Çünki cənab İlham Əliyevin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir. Dövlət başçısı 1 milyona yaxın insanın problemli kreditlər məsələsinə də son qoydu. Prezident dövlətin potensialından xalqın mənafeyi üçün istifadə olunduğunu bir daha nümayiş etdirdi".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistandan böyük etiraf: "Kim istəməz ki, İlham Əliyev kimi prezidenti olsun"

## Azərbaycan Prezidentinin milyonlarla insanın problemlərini həll edən son fərmanları ermənilər tərəfindən sosial şəbəkədə geniş müzakirə olunur

*Əvvəli 1-ci səh.*

Profil səhifəsində iqtisadçı olduğu qeyd edilən Larisa Tuzmanyan adlı istifadəçinin xəbər agentliyinin sorğusunda maraqlı rəyi isə çoxlu bəyənmələrə səbəb olub: "Azərbaycanda dövlətin sosialyönümlü siyasət həyata keçirməsi bizim mediada inkar edilsə də, baş verənlər bunun əksini göstərir. Orada camaatın problemləri barədə düşünürlər. İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı imzaladığı fərman tamam fərqli vəziyyət yaradır. Bu hal istənilən halda təqdir edilməlidir, baxmayaraq ki, Azərbaycanla müharibə aparırıq. Amma orada devalvasiyadan sonra kreditlərini ödəyənlərə də güzəştlər tətbiq edirlər. Niyə biz də belə addımlarla vətəndaşlarımızı sevindirə bilmirik? Bunun üzərində düşünməyə dəyər".

### "Niyə Ermənistanda vətəndaş dövlətinin onun yanında olduğunu hiss etmir?"

Ovik Karapetyan adlı istifadəçi Ermənistanın Azərbaycana iqtisadi cəhətdən həmişə açıq şəkildə uduzduğunu "Vkontakte"də paylaşdığı statusla diqqətə çatdırıb. Səhifəsində stomatoloq olduğu görünən Ovikin paylaşımı bəzilərinin etirazına səbəb olsa da, bir çoxlarının bəyənmələri ilə nəticələnib: "Ermənistanda hökumət nəzarətində olan medianın Azərbaycanla bağlı yazdıqları reallığı əks etdirmir. Orada problemli kreditlərlə bağlı verilən fərman birbaşa və dolayısı ilə bütün insanlara təsir edir. Bu da insanlarda dövlətə olan güvəni daha da möhkəmləndirir. Niyə bizdə də belə nümunələr yoxdur? Niyə bizdə də vətəndaş hər zaman dövlətinin onun yanında olduğunu hiss etmir? Ona görə də ölkəni tərk edənlərin sayı durmadan artır. Hökumət bu barədə fikirləşməlidir".

"Twitter" sosial şəbəkəsində İlham Əliyevin imzaladığı fərmanla bağlı xəbərin paylaşıldığı səhifədə Avram Melukunyan adlı birinin yazdığı rəy də çox bəyənmə toplayıb: "Düşmən dediyimiz ölkənin prezidentinin xalqa xidmətinə baxın, bir də bizimkilərin çıxartdığı hoqqalara. 15 ildir müəllim işləyirəm, bir neçə banka borcum var. Deyəsən, o dünyaya da elə borclu gedəcəyəm. Azərbaycanda isə insanların proeblemli kreditləri həllini tapıb. Müqayisəni özünüz aparın".

### "Biz yeməyə çörək tapmırıq, Azərbaycanda əhalinin kreditlərinə güzəştlər olunur"

Ən maraqlısı isə baş nazir Nikol Paşinyanın sosial şəbəkədəki səhifəsində paylaşılan bir xəbərə Vaxaq Qriqoryan adlı istifadəçinin verdiyi rəydir: "Baş nazir, Xankəndidə yaşayıram. Etiraf edək ki, xalqını düşünən lider İlham Əliyev kimi olar. Biz yeməyə çörək tapmırıq, Azərbaycanda əhalinin kreditlərinə güzəştlər olunur. Səfalət və aclıqdan əziyyət çəkməkdən yorulduq!"

İxtisasca iqtisadçı olan Stepan Qriqoryan adlı istifadəçi isə "Odnoklassniki"də yazır: "Acı həqiqət olsa da, demək lazımdır. Azərbaycan yenə iqtisadi cəhətdən bizdən çox öndə olduğunu göstərə bildi. İlham Əliyev xalqın yanında olduğunu yenə də nümayiş etdirdi. Belə məsələlər Azərbaycanı daha da gücləndirir".

### "Kimdir əsl lider?"

Karen Mkrtçyan adlı "Facebook" istifadəçisi "Nə vaxta qədər belə davam edəcək?" başlıqlı status paylaşıb: "Bizim ölkədə insanlar aclıqdan ölür, kredit almağa belə imkan vermirlər, düşmən adlandırdığımız İlham Əliyev insanların problemli kreditlərini həll edir. İndi siz özünüz qərar verin, kimdir əsl lider?"

Robert Şaqinyan adlı biri isə "Twitter"də yazıb: "Bizim nə vaxt normal bir rəhbərliyimiz olub ki, indi də ola. Elə danışırlar ki, sanki bunlardan yoxdur. Dostlar, acı reallıq olsa da, etiraf etmək lazımdır. Kim istəməzdi ki, İlham Əliyev kimi prezidenti olsun. İstəyirsiniz məni söyün, profilimi şikayət edin. Fikrimdən dönən deyiləm".

Yuxarıda qeyd etdiyimiz statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Bütün bu qeyd edilənlər bir daha Azərbaycanın sosial sahədə həyata keçirdiyi siyasətin erməni cəmiyyətində qibtə ilə qarşılandığını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# 800 min nəfərin kredit problemi həll olundu

## Prezident ölkənin maliyyə imkanlarından xalqın mənafeyi üçün istifadə olunduğunu bir daha nümayiş etdirdi

*Əvvəli 1-ci səh.*

Məlum olduğu kimi, bir neçə il əvvəl baş verən qlobal iqtisadi və maliyyə böhranı, bununla əlaqədar enerji resurslarının qiymətinin kəskin aşağı düşməsi bütün dünya iqtisadiyyatında ağır fəsadlara səbəb olmuş, kəskin sosial problemlər yaratmışdı. Azərbaycan iqtisadiyyatı da bu neqativ təsirlərə müəyyən qədər məruz qalmış, nəticədə əhalinin müəyyən qrupunun ödəmə qabiliyyəti zəifləmiş, xarici valyutada borc alan vətəndaşların banklar qarşısında öhdəlikləri manatın devalvasiyaya uğraması ilə bağlı artmışdı. Sosial müdafiəsi zəif olan minlərlə vətəndaş çıxılmaz vəziyyətə düşmüşdü. Onu da qeyd edək ki, bu hal yarandığı gündən dövlətin ali rəhbərliyinin diqqətində olmuş və problemin həlli üçün real imkanların yetişməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Nəhayət, belə bir məqam gəlib çatdı. Son dövrlər respublikada makroiqtisadi sabitliyin təmin olunması, geniş islahatların həyata keçirilməsi, iqtisadiyyatımızın şaxələndirilməsi və qabaqcıl dünya təcrübəsinin tətbiqi dövlətin maliyyə imkanlarını genişləndirmiş və bununla əhalinin xarici valyutada olan vaxtı keçmiş kredit borclarının ödənilməsinə dövlət dəstəyi göstərilməsi üçün şərait yaranmışdır.

Problemin optimal həlli yollarını tapmaq, bu məsələnin əhali və dövlət büdcəsi üçün ən əlverişli variantda həlli məqsədilə 2018-ci ildən ictimai müzakirələrə başlanılmış, Prezidentin tapşırığına əsasən hökumət bu istiqamətdə fəal təkliflər paketi hazırlamışdır. Milli Məclis də müzakirələrdən kənarda qalmamışdı. Bütün bu müzakirələrin məntiqi yekunu kimi dövlət başçısı müvafiq fərmanı imzalamışdır.

Prezidentin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanını ekspertlər ətraflı şərh edir və bu fərmandan kimlərin hansı qaydada faydalana biləcəyinə aydınlıq gətirirlər. Onların fikrincə, problemli kreditlərin həlli ilə bağlı fərmandan görünən əsas məqamlar bunlardır:

- güzəşt yalnız fiziki şəxslər üçün nəzərdə tutulub;
- güzəşt yalnız 10 000 ABŞ dollarına qədər olan borclara aid olacaq;
- güzəşt yalnız 2015-ci ilin 21 fevral və 21 dekabr devalvasiya qərarları nəticəsində artmış məbləğlərin kompensasiyası ilə bağlı olacaq;
- güzəşt üçün başlanğıc tarix 2012-ci ilin yanvarın 1-i, son tarix bu gün - 2019-cu ilin 28 fevralı götürülür;
- vətəndaşların 10 000 dollara qədər kreditlərinə görə hesablanmış bütün faiz borcları silinir;
- 2012-ci il yanvarın 1-dən 2015-ci il 21 fevraladək olan kredit borclarının hər dolları üçün dövlət büdcəsindən 25 qəpik dövlət büdcəsindən ödənilir;
- 2015-ci il 21 fevralından 21 dekabrınadək verilən dollar kreditlərinin hər dolları üçün 60 qəpik dövlət büdcəsindən ödənilir;
- dövlət büdcəsi hesabına bu sxem üzrə kompensasiya ödəniş müddəti 360 günü ötdüyü halda banklara ödənir, əgər həmin müddəti keçməyibsə, bilavasitə vətəndaşın özünə çatdırılır;
- devalvasiya nəticəsində borcun artan hissəsi və hesablanmış faiz hissəsi dövlət büdcəsindən ödəndikdən sonra yerdə qalan hissə restruktruzasiya ediləcək - yəni şərtlər dəyişdiriləcək. Məsələn, tutaq ki, vətəndaş 2015-cü ilin yanvarında 0,78 manat məzənnə ilə 5000 dollar borc götürüb. Həmin tarix üçün onun manatla borcu 3950 manat idisə, 21 dekabr 2015-ci ildə artıq 7750 manat olmuşdur. Belə vəziyyətdə məzənnə dəyişikliyi nəticəsində zərəri qarşılamaq üçün 5000 dollara görə büdcədən 3000 manat (hər dollar üçün 60 qəpik) kompensasiya ödənilir;
- devalvasiya nəticəsində artan hissə ödəndikdən sonra yerdə qalan borcları ödəmək üçün vətəndaşlara manatla yenidən hesablanmış borcları ödəmək üçün 1 il güzəşt müddəti olmaqla 5 illiyə illik 1 faizlə banklar tərəfindən kredit xətti açılır. Bunun üçün Mərkəzi Banka banklara vermək üçün illik 0,1 faizlə ümumi həcmi 682 milyon manat olmaqla kredit ayrılır.

Sonda bir daha bildirək ki, bu fərmanla Azərbaycanda ciddiliyindən və maliyyə yükündən asılı olmayaraq bütün problemlərin həlli zamanı yalnız xalqın mənafeyinin nəzərə alınması bir daha təsdiq edildi.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82, № 11, maddələr 1258, 1292; 2016, № 1, maddə 40, № 5, maddə 837, № 12, maddə 1986; 2017, № 12, I kitab, maddə 2254; 2018, № 1, maddə 16, № 5, maddə 891, № 6, maddə 1166) 29-cu maddəsində “Milli Kitabxanaya, Kitab Palatasına, Azərbaycan Mətbuat Şurasına, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma (qəzet və jurnalların məcburi nüsxələri), həmçinin “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində müəyyən edilmiş qaydada müvafiq kitabxanalara” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1478-VQD nömrəli Qanununun tətbiqi və “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1478-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 92; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 24; 2008, № 5, maddə 359; 2009, № 8, maddə 627; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 11, maddə 1312; 2016, № 4, maddə 675, № 8, maddə 1384; 2017, № 8, maddə 1521) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci-səkkizinci abzaslar, müvafiq olaraq, 2.1-2.7-ci bəndlər hesab edilsin;

3.2. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

3.3. 2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

“2.8. həmin qanunun 29-cu maddəsində “qurum” dedikdə Azərbaycan Mətbuat Şurası nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 737; 2003, № 1, maddə 1; 2006, № 3, maddə 225; 2007, № 6, maddə 562, № 12, maddə 1216; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1168; 2016, № 3, maddə 423; 2017, № 5, maddə 741, № 7, maddə 1291; 2018, № 5, maddə 847) aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci maddə üzrə:

1.1. adında “Ali Sovetinin” sözləri “Milli Məclisinin” sözləri ilə əvəz edilsin;

1.2. mətnində “Ali Soveti” sözləri “Milli Məclisi” sözləri ilə əvəz edilsin.

2. 13-2.5-ci maddədən “müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1501-VQD nömrəli Qanununun tətbiqi və “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1501-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 819) 2.1-ci bəndində “,13-2.5-ci və 13-10.1-ci maddələrində” sözləri “və 13-10.1-ci maddəsində” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında” Sazişə Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə” Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında” Sazişə Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə” 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununu “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“İcra haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494; 2015, № 12, maddə 1434; 2016, № 12, maddə 2050; 2017, № 2, maddə 156, № 6, maddə 1056, № 8, maddə 1511; 2018, № 2, maddə 151, № 5, maddələr 853, 867, № 7 (I kitab), maddə 1424, № 8, maddə 1674; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanunu) 13.1.3-cü maddəsində “on gün ərzində” sözləri “dərhal” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1504-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1504-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2019-cu il*

## “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 581; 2002, № 12, maddə 709; 2004, № 7, maddə 505; 2007, № 10, maddə 938; 2008, № 5, maddə 343; 2013, № 5, maddə 483; 2017, № 2, maddə 143) aşağıdakı dəyişikliklər edilsin:

1. 22-ci maddəsinin birinci hissəsində “Azərbaycan Respublikasının Milli Kitabxanasına, Kitab Palatasına, Azərbaycan Mətbuat Şurasına, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının və qanunvericilikdə nəzərdə tutulmuş digər orqanların kitabxanalarına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma (qəzet və jurnalların məcburi nüsxələrini), həmçinin “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində müəyyən edilmiş qaydada müvafiq kitabxanalara” sözləri ilə əvəz edilsin.

2. 25-ci maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1479-VQD nömrəli Qanununun tətbiqi və “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 avqust tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1479-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 avqust tarixli 384 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 607; 2008, № 9, maddə 798) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“həmin qanunun 22-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

3.2. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“həmin qanunun 22-ci maddəsinin birinci hissəsində “qurum” dedikdə Azərbaycan Mətbuat Şurası nəzərdə tutulur.”;

3.3. ikinci-altıncı abzaslar, müvafiq olaraq, 2.1-2.5-ci bəndlər hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokol”un icrası ilə bağlı səlahiyyətli orqanların müəyyən edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1486-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokol”un 2-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

2018-ci il fevralın 12-də Aktau şəhərində imzalanmış “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokol” Azərbaycan Respublikası tərəfinin həyata keçirməsi ilə bağlı səlahiyyətli orqanlar qismində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti müəyyən edilsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## “2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə” Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“2010-cu il 18 noyabr tarixli “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə” 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1289-VQD nömrəli, 1290-VQD nömrəli və 2018-ci il 18 dekabr tarixli 1392-VQD nömrəli qanunları) 2-ci maddəsində "Azərbaycan Respublikasının aşağıdakı medalları təsis edilsin:" sözlərindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Qızıl Ulduz" medalı;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1465-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1465-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə" 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Belarus Respublikasının Məhkəmə Ekspertizaları Dövlət Komitəsi arasında məhkəmə ekspertizası fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Belarus Respublikasının Məhkəmə Ekspertizaları Dövlət Komitəsi arasında məhkəmə ekspertizası fəaliyyəti sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikası hökuməti ilə Belarus Respublikası hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası hökuməti ilə Belarus Respublikası hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172; 2012, № 2, maddə 68, № 5, maddə 426, № 9, maddə 851, № 12, maddə 1248; 2013, № 9, maddə 1063; 2014, № 9, maddə 1033; 2016, № 2 (II kitab), maddə 236; 2017, № 3, maddə 383, № 10, maddə 1782, № 11, maddə 2022; 2018, № 5, maddə 971) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın 2.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"2.3. Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru və onun müavini, İcraçı direktorun müşaviri, köməkçisi, İcraçı direktorun ofisinin, Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın Katibliyinin və digər struktur vahidlərinin (müdiriyyət, departament, şöbə) rəhbərləri və onların müavinləri;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə və 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"da dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253; 2005, № 4, maddə 299; 2008, № 6, maddə 496; 2011, № 7, maddə 655; 2013, № 6, maddə 684; 2017, № 5, maddə 886, № 11, maddə 2071) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"nin 9.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"9.1. Akademiya "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq mühasibat uçotunu aparır, habelə statistik, maliyyə və vergi hesabatlarını tərtib və təqdim edir.".

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186; 2016, № 5, maddə 927, № 9, maddə 1464; 2017, № 3, maddə 353; 2018, № 6, maddə 1297) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın 82-ci bəndində "mühasibata və maliyyə-təsərrüfat uçotuna aid sənədləşmə işi qanunvericilikdə nəzərdə tutulmuş qaydada" sözləri "mühasibat uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" 2011-ci il 14 sentyabr tarixli 1722 nömrəli və "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi haqqında" 2013-cü il 30 avqust tarixli 3108 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253; 2005, № 4, maddə 299; 2008, № 6, maddə 496; 2011, № 7, maddə 655; 2013, № 6, maddə 684; 2017, № 5, maddə 886, № 11, maddə 2071) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"nin 6.8-ci bəndində "qəbul planı" sözləri "müvafiq ixtisaslar üzrə qəbul" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 14 sentyabr tarixli 1722 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 821; 2016, № 7, maddə 1296) 1-ci hissəsində "bakalavriat və magistratura" sözləri "bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura)" sözləri ilə əvəz edilsin.

3. "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 988; 2015, № 11, maddə 1339; 2016, № 1, maddə 134; 2017, № 5, maddə 934; 2018, № 5, maddə 1022) 1.2-ci bəndinin yeddinci abzasına "bakalavriat" sözündən sonra "əsas (baza ali) tibb təhsili" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli, "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" 2014-cü il 18 mart tarixli 347 nömrəli və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 19 yanvar tarixli 995 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1186) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 7-ci hissəsinin 3.4.1-ci yarımbəndində "və "Tələbə-məzun" sistemi" sözləri ", Tələbə-məzun" və "Şagird-məzun" dövlət elektron məlumat sistemləri" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 292; 2016, № 7, maddə 1297) 1-ci hissəsində "tibb təhsilində əsas" sözləri "əsas (baza ali) tibb təhsili" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 39; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 5, maddə 802, № 8, maddə 1521) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 3.4.1-ci yarımbəndində "və "Tələbə-məzun" sistemi" sözləri ", Tələbə-məzun" və "Şagird-məzun" dövlət elektron məlumat sistemləri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"ndə və 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 198) ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.4-cü bənddə "tələbə qəbulu planı" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulu" sözləri ilə əvəz edilsin;

1.2. 5.4-cü bənddə "tələbə qəbulu planının" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulunun" sözləri ilə əvəz edilsin;

1.3. 7.6-cı bənddə "tədris" sözü "təhsil" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1795) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin 5.9-cu bəndində "qəbul planını" sözləri "müvafiq ixtisaslar üzrə qəbulu" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2012-ci il 9 mart tarixli 596 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.10-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.10-1. təhsil proqramlarını, tədris planlarını və proqramlarını təsdiq edir;";

1.2. 8.16-cı bənddə "və internat məktəbləri" sözləri ", ümumtəhsil internat məktəbləri və inteqrasiya təlimli internat tipli təhsil müəssisələri" sözləri ilə əvəz edilsin;

1.3. 8.17-1-ci bənddə "qaydada metodiki və diaqnostik məsləhət və ələqələndirmə xidməti təşkil edir" sözləri "maarifləndirmə tədbirləri həyata keçirir" sözləri ilə əvəz edilsin;

1.4. 8.17-2-ci bənddə "ümumi təhsil müəssisəsində" sözləri "təhsil müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.5. 8.36-cı bəndə "attestasiyasını" sözündən sonra "(dövlət ümumtəhsil müəssisələrində - sertifikatlaşdırılması-nı)" sözləri əlavə edilsin.

2. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 mart tarixli 596 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 197) 2.3-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ADA" Universitetinin Nizamnaməsi"ndə, 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə, 2015-ci il 17 aprel tarixli 502 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi"ndə və 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 793; 2017, № 5, maddələr 788, 802, № 7, maddə 1364; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli 522 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "ADA" Universitetinin Nizamnaməsi"nin 4.4-cü və 4.5-ci bəndlərində "qəbul planını" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulunu" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1585; 2016, № 7, maddə 1250, № 11, maddə 1803; 2017, № 5, maddələr 789, 802, № 7, maddə 1366; 2018, № 4, maddə 697) ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.6-cı bənddə "qəbul planını" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulunu" sözləri ilə əvəz edilsin;

2.2. 9.3-cü bənddə "tədris" sözü "təhsil" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 aprel tarixli 502 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 381; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 790, 802, № 7, maddə 1367) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi"nin 5.7-ci bəndində "qəbul planını" sözləri "müvafiq ixtisaslar üzrə qəbulu" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1464; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 791, 802, № 7, maddə 1369; 2018, № 4, maddə 699) ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.3-cü bənddə "qəbul planını" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulunu" sözləri ilə əvəz edilsin;

4.2. 8.3-cü bənddə "tədris" sözü "təhsil" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin "Dövlət gənclər siyasəti haqqında" 1999-cu il 29 iyul tarixli 169 nömrəli, "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 2010-cu il 10 fevral tarixli 220 nömrəli və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 431; 2001, № 7, maddə 459; 2007, № 5, maddə 459; 2010, № 2, maddə 80; 2017, № 5, maddə 802) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı"nın VI bölməsinin 4-cü hissəsinin "Tədbirin adı" sütununda "Uşaq yaradıcılıq" sözləri "Yaradıcılıq və inkişaf" sözləri ilə əvəz edilsin.

2. "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 84; 2014, № 5, maddə 477, № 12, maddə 1564; 2015, № 5, maddə 527; 2016, № 8, maddə 1384; 2017, № 5, maddələr 785, 801, 831) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.2-ci bənddə "tibb təhsili üzrə əsas təhsil" sözləri "əsas (baza ali) tibb təhsili" sözləri ilə əvəz edilsin;

2.2. 4.3-cü bənddə "tibb təhsili üzrə əsas təhsil" sözləri "əsas (baza ali) tibb təhsili" sözləri ilə, "tələbə qəbulunun planını" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulunu" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.12.3-cü və 3.12.4-cü yarımbəndlərdə "xüsusi uşaq bağçaları" sözləri "sanator tipli məktəbəqədər təhsil müəssisəsi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəbəqədər təhsil müəssisələri" sözləri ilə əvəz edilsin;

3.2. 4.6.15-ci yarımbəndə "ümumtəhsil internat məktəblərinə," sözlərindən sonra "inteqrasiya təlimli internat tipli təhsil müəssisələrinə," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 3375 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 noyabr tarixli 334 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 3375 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2084) 1-ci hissəsində "Tərcümə Mərkəzinin direktoru" sözləri "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# "Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1847 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 noyabr tarixli 334 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1847 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 211) adına və 1-ci hissəsinə "Tərcümə" sözündən əvvəl "Azərbaycan Dövlət" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# "Ümumi təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda müşavirə





Martın 2-də Bakı şəhəri 6 nömrəli məktəb-liseydə "Ümumi təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən təhsil naziri Ceyhun Bayramov təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu diqqətə çatdırıb, son illər bu sahədə aparılan islahatlar, ümumi təhsilin keyfiyyətinin artırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, şəxsiyyətin formalaşmasında, zəruri həyati bacarıqlara yiyələnməsində, müstəqil fəaliyyətə hazırlanmasında ümumi təhsil müstəsna əhəmiyyətə malikdir və bu baxımdan ən geniş əhatə dairəsi olan bu təhsil pilləsinə həmişə xüsusi diqqət göstərilib.

Ceyhun Bayramov bildirib ki, ümumi təhsil müəssisələrinin idarəedilməsinin təşkili təhsilin keyfiyyətinin yüksəldilməsində vacib amildir. Son iki ayda ümumi təhsil müəssisələrinə 132 direktor təyin olunub. Məktəb direktorlarının təyinatı prosesi davam etdiriləcək.

Yerli təhsili idarəetmə qurumlarının məktəblərlə ünsiyyətinin gücləndirilməsinin vacibliyini vurğulayan nazir, eyni zamanda, təhsilin keyfiyyətinin yüksəldilməsində valideyn amilinin önəmini diqqətə çatdırıb.

Təhsil naziri qeyd edib ki, son illərdə həyata keçirilən islahatlar nəticəsində müəllim peşəsinin nüfuzu və bu sahəni seçənlərin sayı əhəmiyyətli dərəcədə artıb. Bununla yanaşı, yeni qəbul olunan müəllimlərin keyfiyyət göstəriciləri daha da yüksəlib.

Ceyhun Bayramov təhsili idarəetmə orqanları ilə pedaqoji profilli universitetlərin əməkdaşlığının vacib olduğunu qeyd edib. Bildirib ki, müəllimlik ixtisasında oxuyan tələbələrin pedaqoji təcrübələri ölkənin bütün ümumtəhsil məktəblərində aparılmalı, universitet-məktəb əməkdaşlığı daha da genişləndirilməlidir.

Nazir müəllimlərin ixtisasartırma təlimlərinə cəlb olunmasına xüsusi diqqət yetirildiyini və bu sahədə modulların yenilənəcəyini bildirib. Eyni zamanda, məktəb bazasında səriştəyönümlü və kompetensiya əsaslı peşə təmayülünün daha da genişlənməsi istiqamətində işlər görüləcəyini nəzərə çatdırıb.

İstedadlı uşaqlarla işin təşkilinə dair həyata keçirilən layihələrdən söz açan təhsil naziri qeyd edib ki, indiyədək ölkə üzrə belə uşaqların seçimi aparılıb və 60 xüsusi sinif yaradılıb. Nazir şagirdlərdə milli-mənəvi dəyərlərin və vətənpərvərlik ruhunun aşılanmasının əsas prioritetlərdən olduğunu vurğulayıb.

Müşavirədə çıxış edən təhsil nazirinin müavini Məhəbbət Vəliyeva "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulan hədəflərin hər bir təhsil işçisinin üzərinə mühüm vəzifələr qoyduğunu vurğulayıb. Qeyd edib ki, hazırda ölkə üzrə ümumilikdə 2 şəhər təhsil idarəsi, 2 şəhər təhsil şöbəsi, 60 rayon təhsil şöbəsi və bu qurumların tabeliyində 4 min 445 məktəb fəaliyyət göstərir. Həmin məktəblərdə 144 min müəllim çalışır, şagirdlərin ümumi sayı 1 milyon 520 min nəfərdir.

Məhəbbət Vəliyeva bildirib ki, müəllimlərin mərkəzləşmiş qaydada işə qəbulu üzrə müsabiqəyə 2015-ci ildə 21 min 795 nəfər müraciət edib, onlardan 2 min 200-ü işə qəbul olunub. Ötən il isə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə 50 min 697 nəfər müraciət edib, onlardan 8 min 500-ü daimi əsaslarla işə qəbul olunub. Həmin müəllimlərin 48 faizi müddətsiz, 52 faizi müddətli müqavilə ilə fəaliyyət göstərir. Nazir müavini yerlərdə gənc müəllimlərlə işin nəzarətə götürülməsi və onların istiqamətləndirilməsinin vacib olduğunu qeyd edib.

Müşavirədə Təhsil Nazirliyinin ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev, insan resursları şöbəsinin müdiri Eşqi Bağırov, audit şöbəsinin sektor müdiri Mürşüd Rəşidov dövlət proqramlarından irəli gələn məsələlərlə bağlı tapşırıqların, eləcə də Təhsil Nazirliyinin əmr və sərəncamlarının yerinə yetirilməsi vəziyyəti, təlim keyfiyyəti, təmayülləşmə, məktəbdaxili nəzarət və rəhbərliyin həyata keçirilməsi istiqamətində görülən işlər barədə məlumat veriblər. Çıxışlarda, həmçinin monitorinq və araşdırmaların nəticələri və bununla bağlı görülən tədbirlər haqqında danışılıb.

Çıxışlar ətrafında müzakirələr aparılıb, yerli təhsili idarəetmə qurumlarının rəhbərlərinə tapşırıq və tövsiyələr verilib.

### Dövlət başçısına minnətdarlıq

# Prezidentin gənclərə göstərdiyi etimad məsuliyyətimizi daha da artırıb

Hörmətli cənab Prezident! Azərbaycan gəncliyinin ən böyük hamisi kimi hər zaman bizlərə göstərdiyiniz diqqət və qayğıdan qürur duymuşuq. Təhsil sahəsində apardığınız islahatlar ölkədə gənclərin daha mükəmməl təhsil almaları üçün real imkanlar yaradıb.

Bütün bu uğurları görən bir Azərbaycan gənci kimi mən də yaxşı təhsil alıb gələcəkdə dövlətimə, xalqıma layiqli xidmət etmək üçün bir yol seçdim. Orta məktəbi qızıl medalla başa vurub test imtahanlarında yüksək bal toplayaraq Prezident təqaüdçüsü kimi ADA Universitetində təhsil almağa başladım.

Cənab Prezident, 2019-cu il başlayandan həm ölkə əhalisinin sosial rifahının, həm də bütün tələbələrin maddi vəziyyətinin yaxşılaşdırılması, Prezident təqaüdünün artırılması istiqamətində imzaladığınız sərəncam və fərmanlar hər kəsdə fəxarət hissi yaradıb. Bu həm də bizim - Prezident təqaüdçülərinin məsuliyyətini bir qədər də artırıb. Digər tərəfdən tələbələrin təqaüdlərinə 30 faiz əlavənin edilməsi gənclərin fəallığına stimul yaradıb.



Cənab Prezident, bizə göstərdiyiniz bu diqqət və qayğıya görə həm öz adımdan, həm də universitetimizdə təhsil alan bütün Prezident təqaüdçüləri adından Sizə dərin təşəkkürümü bildirirəm. Söz veririk ki, göstərdiyiniz etimadınıza adekvat olaraq üzərimizə düşən məsuliyyətli işi layiqincə doğrultmaq üçün əlimizdən gələni əsirgəməyəcək və hər zaman yürütdüyünüz uğurlu siyasətin müdafiəçisi olacağıq. İnanırıq ki, hərtərəfli dəstək göstərdiyiniz gənclər yüksək səviyyədə təhsil alıb bu gün qurduğunuz qüdrətli Azərbaycan dövlətinin gələcəkdə daha da güclənməsi, çiçəklənməsi yolunda layiqli xidmət missiyalarını uğurla yerinə yetirəcəklər.

***Ayxan DADAŞOV,***
***ADA Universitetinin Hüquq fakültəsinin I kurs tələbəsi, 695 bal toplamış Prezident təqaüdçüsü***

# Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinin böyük hissəsi energetika sektorunun payına düşür

*Əvvəli 1-ci səh.*

Azərbaycanın karbohidrogen ehtiyatlarını istehlakçılara çatdıran həmin kəmərlər üçün Gürcüstan tranzit ölkələrdən biridir. Azərbaycan, Gürcüstan və Türkiyənin səyləri ilə gerçəkləşən bu layihələr, möhkəmlənən regional əməkdaşlıq getdikcə genişlənərək mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatını yaratdı.

Cari il fevralın 27-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan və Gürcüstan prezidentlərinin mətbuata bəyanatlarında da bu məsələ öz əksini tapıb. Azərbaycan dövlətinin başçısı deyib: "Bu layihələr bizim iqtisadi inkişafımızı böyük dərəcədə artırır. Bu marşrut üzrə bu gün "Cənub qaz dəhlizi" layihəsi uğurla icra edilir. Bu, bölgədə ən böyük infrastruktur layihəsidir. "Cənub qaz dəhlizi"nin reallaşmasına az vaxt qalıb. Keçən il "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi olmuşdur və onun əsas hissəsini təşkil edən TANAP layihəsi də istifadəyə verilmişdir. Artıq TANAP xətti ilə qazın nəqli təmin edilir. Bu layihələr ölkələrimiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır, geniş mənada əməkdaşlığı dərinləşdirir. Əgər layihələrin əvvəlində üç ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı böyük dərəcədə genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilir".

Qarşılıqlı əlaqələr təkcə energetika sahəsindəki əməkdaşlıqla bitmir. Bu gün Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və həmin ölkədə əsas investorlardan biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasındadır.

Nəqliyyat sahəsindəki əməkdaşlıq da böyük əhəmiyyətə malikdir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı sayəsində hər iki ölkənin ərazisindən keçən yüklərin həcmi artıb. Bu istiqamətdə də böyük perspektivlər var. Çünki Azərbaycan və Gürcüstan Asiya və Avropanı, Çini və Qərbi, Xəzər dənizini və Qara dənizi birləşdirən yollar üzərində yerləşirlər. Bu səbəbdən də sözügedən nəqliyyat dəhlizlərinə maraq gündən-günə artır. Bunu öz bəyanatında Gürcüstan Prezidenti Salome Zurabişvili də qeyd edib: "Nəqliyyat dəhlizi çox vacibdir və həqiqətən, bizim əməkdaşlığımızın təməl daşıdır. Nəqliyyat bugünkü dünyada çox potensiallı sahədir. Nəqliyyat sahəsi dünya üçün çox əhəmiyyətlidir. Asiyanın, Çinin və Avropanın birləşdirilməsi çox mühüm məsələdir və biz bu yolla gedirik. Bu, ən qısa yoldur, lakin biz hələ bu yolun imkanlarını tam inkişaf edirməmişik və bu, bizdən asılıdır... Biz bu istiqamətdə də investisiyalar cəlb etməyə hazırıq. Biz Azərbaycanla birlikdə bu imkanlardan sona qədər istifadə etməliyik".

Gürcüstan Prezidentinin ölkəmizə rəsmi səfəri çərçivəsində turizmin inkişafı barədə də fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, turizm sahəsi də inkişaf etdirilməlidir. Bu məkan turistlər üçün tam açıq olmalıdır. İki ölkənin və xalqın dostluğuna əsaslanaraq belə qərara alınıb ki, delimitasiya komissiyasına öz işlərini yeniləmək və bu çalışmaları sona çatdırmaq üçün tapşırıq verilsin.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafı üçün digər sahələrdə də, məsələn, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, elm, təhsil, mədəniyyət sahələrində də imkanlar və perspektivlər var.

Azərbaycanın və Gürcüstanın indiyədək dostluq, qarşılıqlı anlaşma, sıx əməkdaşlıq şəraitində həyata keçirdikləri enerji layihələrinin təcrübəsi və uğurlu nəticələri göstərir ki, sözügedən sahələrin hamısında buna nail olmaq mümkündür. Gürcüstanın dövlət başçısı seçildikdən sonra Salome Zurabişvilinin regiona ilk səfərini məhz Azərbaycana etməsi də yaranmış dostluq və əməkdaşlıq ənənələrinin uğurlu davamının göstəricisidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● İrs

**Mütəxəssislər deyirlər ki, zərifliyi qədər də incə olan bu gözəlliyin özündə, mahiyyətində, fəlsəfəsində çoxlu sirr gizlənib. Kəlağayı xalqın məişətini, xüsusiyyətlərini, dünyaya baxışını və estetik dəyərlərini özündə cəm edib. Və beləliklə də Azərbaycan xanımlarının mədəniyyətimizin gözəl nümunəsi olan milli geyiminin bir hissəsinə çevrilib.**



# Milli ruhun simfoniyası

> Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümz də bundadır. Bu ənənələr, bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün vacibdir və hər bir Azərbaycan vətəndaşının gələcəyi, inkişafı üçün böyük rol oynayır.
>
> **İlham ƏLİYEV**

### "Hava kimi yüngül, su kimi şəffaf"

Kəlağayı təbii ipəkdən hazırlanır. Arxeoloji-etnoqrafik tədqiqatlar göstərir ki, Azərbaycanda ipəyin tarixi Böyük İpək yolunun meydana çıxması ilə sıx bağlıdır. İpəyin vətəni olan Çinlə qarşılıqlı əlaqələrin yaranması nəticədə ilk növbədə Şirvanda ipəkçiliyin inkişafına təkan vermişdir. Coğrafi vəziyyəti və əlverişli iqlim şəraiti Azərbaycanın əsrlər boyu dünya ipəkçilik mərkəzlərindən biri olmasına zəmin yaratmışdır. Burada yetişdirilən barama yüksək keyfiyyəti ilə fərqlənirdi. Buna görə də ipək saplar və bu saplardan toxunmuş parçalar hamı tərəfindən bəyənilirdi.

Avropada ipəyə olan tələbat Böyük İpək yolunun yaranmasına təkan vermişdi. İpək o qədər baha idi ki, qiyməti qızıl ilə ölçülürdü və çox vaxt ticarətdə pul vahidi kimi istifadə olunurdu. Deyirlər ki, ipək olan yerdə zənginlik var. Axar suya bənzəyən, zərif toxunuşlu ipək paltar xaricdə sadəcə öz gözəlliyinə və davamlılığına görə deyil, həm də o dövrlərdə çox vacib sayılan gigiyenik keyfiyyətinə - həşəratlara qarşı qoruyucu təsirinə görə də qiymətləndirilirdi. Yüngül, incə, axıcı ipək tarix boyu həmişə qiymətli sayılmış və sirli bir aləmlə əhatə olunmuşdur. Bu "hava kimi yüngül", "buz kimi şəffaf" materiya indi də yaxşı zövq və dəbdəbə əlaməti sayılır. Şamaxı Azərbaycanda ən qədim ipəkçilik mərkəzi hesab edilir. Müxtəlif əsrlərdə yaşamış səyyahların əsərlərində Azərbyacanın Gəncə, Şəki, Təbriz, Şuşa kimi şəhərlərində də yüksəkkeyfiyyətli ipəyin istehsal olunduğu yazılır. XIV əsrin ikinci yarısından etibarən Ordubad və Culfa ipək ticarətinin ən iri mərkəzləri kimi tanınırdı. Bir sözlə, neftə qədər Azərbaycanı dünyada məşhurlaşdıran ipək olub.

İpək tutqun parlaqlığı ilə göz oxşayır, insana rahatlıq gətirir, xışıltısı isə xəyallara qanad verir. Geyimdə və interyerdə ipəkdən istifadə olunması incə zövq və firavanlığın əlamətidir. Bu baxımdan Azərbaycanda ipəkdən hazırlanan məmulatlar içərisində kəlağayı xüsusi yer tutur.

### Oynaq rənglər, incə naxışlar...

Qədim dövrlərin rayihəsi hopmuş kəlağayı üç əsrdən çoxdur ki, məişətimizə daxil olmuşdur. O, hər zaman unikal və ənənəvi qadın baş örtüyü kimi qiymətləndirilib. Təxminən 300 il bundan əvvəl meydana çıxıb. Alimlər Azərbaycanın İsmayıllı rayonunun qədim Basqal kəndində qorunub saxlanılmış naxışvuran dəzgaha məhz bu qədər yaş veriblər. Qaynar rənglər və mumla naxışların salınması üçün istifadə olunan forma və matrisaların isə 200 illik tarixi var deyirlər.

Basqal Asiya ilə Avropanı birləşdirən Böyük İpək yolunun üzərində mühüm dayanacaqlardan biri olub. Bu kənd sənətkarlığın mərkəzinə çevrilib və ilk növbədə ipək toxuculuğu və yüksəksəviyyəli kəlağayılarımızın istehsalı ilə tanınıb.

Azərbaycanın müxtəlif regionlarında istehsal olunan kəlağayılar bir-birindən ornamentlərinə görə fərqləniblər. Abşeron və Şəki üçün iri naxışlar xarakterik olub. Şamaxıda xırda naxışlardan, Gəncə, Qazax və Qarabağ bölgələrində isə bütün naxışların kombinasiyalarından istifadə edilib.

### Sirlər və təbiətin gizli xəzinəsi

Kəlağayı haqqında ənənəvi qadın baş örtüyü kimi düşünəndə görürsən ki, o, sadəcə funksional bir geyim elementi deyil. Milli toxuculuq sənətinin bu növü dünya düzəninin sirlərinə, təbiətin gizli qanunlarına gedib çıxır, həyat fəlsəfəsini özündə əks etdirən sərt, dönməz qaydalara əsaslanmış mütənasib forma və estetik prinsiplər sistemindən ibarətdir. Bu qədim sənət növünün araşdırıcıları BDU-nun kafedra müdiri, Rəna İbrahimbəyova, Cəlil Tarıverdiyev, Z.Miller-Tarıverdi tərəfindən işlənib hazırlanmış konsepsiyaya uyğun olaraq kəlağayı yalnız təbii ipəkdən, özü də "kəlağayı ipəyindən" hazırlanır. Alimlər yazırlar ki, hazırda kəlağayının bükülməsi də özündə dərin məna saxlayan bir prosedurdur. Bu zaman heç bir qaydanı pozmaq olmaz. İlk üç büküş uzununa, daha üç büküş isə eninə olmalıdır. Nəslən kəlağayıçı olan ustalar əmindirlər ki, bu simvolika dəyişməz təbiət qanunlarından irəli gəlmişdir. Kəlağayı özündə həyatın - həm təbiətin, həm də bəşər həyatının bütün elementlərini saxlayır. Bu baş örtüyünün üçqat uzununa bükülüsü həyat dövriyyəsinin əsasını təşkil edən üç cüt ziddiyyətli anlayışı əks etdirir: yaşam və ölüm, xeyir və şər, həqiqət və yalan. Örtüyün eninə üç büküşü isə ayrıayrılıqda götürülmüş hər bir insanın həyatını təşkil edən xüsusiyyətlərin - məhəbbət və nifrətin, güc və zəifliyin, müdriklik və sadəlövhlüyün rəmzidir.

### Boyaqçılıq möcüzədir

Tədqiqatçı Cəlil Tarıverdiyev deyir ki, boyaqçılıq bir möcüzədir. Burada rənglərlə elə işləməlisən ki, onlar qarışmasın. İnsanlar bir yerdən digər yerə köçəndə də yeni məkanda ilk olaraq kəlağayı hazırlayıblar. Çəkisi cəmi 130 qram olan kəlağayı üzükdən rahatlıqla keçir. Naxışlarına, rənglərinə görə fərqlənən kəlağayıların zirvəsi isə "yeddirəng kəlağayı"dır. Onu doqquz dəfə qaynadır, rəngləyir və qurudurlar.

Kəlağayının hər bir rənginin də öz mənası var və müəyyən hadisə ilə əlaqədardır: qayınana gəlininə toyqabağı al-qırmızı kəlağayı hədiyyə edir. Bu, gəlinin üzünü və çiyinlərini örtür. İlk doğulmuş körpə də məhz bu kəlağayıya bükülür.

Toya gəlmiş qonaqlar qatlarla uzununa bükülmüş əsasən ağ rəngli kəlağayıları bəyin çiyninə salırlar. Bunun da öz mənası, sirri var.

Azərbaycanın qədim adətlərinə görə, qadın kəlağayısını döyüşən tərəflərin üzərinə ataraq qan tökülməsinin qarşısını ala bilir. Buna görə də o, sülh və əmin-amanlıq rəmzi sayılır.

Qız isə ona evlənmək təklifi edən oğlana kəlağayısını verməklə nikaha razı olduğuna işarə edir.

Bəzi rənglərin, məsələn, göy, qırmızı, qızılı-oxra rənglərin şəfaverici xüsusiyyətə malik olduğu söylənilir. Kəlağayının müalicəvi əhəmiyyətə malik olması - bədnəzərdən, bəlalardan qorunması barədə də çoxlu inanclar var.

Kəlağayılar naxışların yerləşmə xüsusiyyətinə görə üç növə bölünür. Birinci növə tamamilə naxışlarla örtülmüş kəlağayılar aiddir. Onlar özünəməxsus şəkildə dünyanın mənzərəsini əks etdirir. "Heyratı" ən qədim kəlağayı növüdür. Bu qrupa sarı-qəhvəyi və ya qızılınarıncı rənglər daxildir.

İkinci qrup kəlağayılarda parçanın kənarı iri naxışlarla bəzədilir. Burada buta və nar çiçəyi motivləri mühüm rol oynayır. Nəhayət, üçüncü qrupa "gündəlik" xarakter daşıyan kəlağayılar aiddir. Onlara "yeləni" və yaxud "haşiyəli" baş örtüyü deyilir.

### "Buta", "şah buta", "güllü buta"...

Kəlağayılara vurulan naxışların zənginliyi isə əsrlər boyu insanları heyran etmişdir. Kəlağayı konsepsiyasının müəllifləri müəyyən etmişlər ki, ornamentlərin və onların kompozisiyalarının mənası qəliblərin adlarında öz əksini tapmışdır. Bugünə qədər yerli əhalidən 130-dan artıq alınmış qəlib ədəbi mənbələr və şifahi təsvirlər əsasında bərpa edilərək Basqaldakı interaktiv "Kəlağayı muzeyi"ndə saxlanılır. Alimlər tərəfindən ilk dəfə onların təsnifatı aparılmış və kataloq şəklində nəşr edilmişdir. Hər bir qəlibin də adı vardır: "şah", "şah buta", "güllü buta", "badam buta", "hirsli buta", "küsülü buta" və s.

Azərbaycanın ən geniş yayılmış bədii ənənələrindən biri də butadır. Bu elementə xalq yaradıcılığının bütün sahələrində rast gəlmək olar. Kəlağayılarda isə həmin element xüsusilə tətbiq edilir.

Kəlağayının əsas dekorativ elementlərindən biri də "islimi" ornamentidir. Bundan Azərbaycan incəsənətində, o cümlədən memarlıq bəzəklərində, ağac və daş oymalarında, minalı keramikada, parça və xalça toxuculuğunda geniş istifadə olunur. "İslimi" sözünün Şərqə məxsus spesifik izahı isə islam dininin adı ilə əlaqələndirilir. Hazırda kəlağayının 35 növü mövcuddur. Onlar rənglərinə, ornamentlərinə və ümumi kompozisiyalarına görə bir-birindən fərqlənir.

Sovet dövründə çadraya qoyulan qadağa kəlağayıya şamil edilməmişdi. Amma ondan istifadə müəyyən səbəblərə görə məhdudlaşdırılmışdı. Sosializm sisteminin dağılmasından sonra Azərbaycanda ipəkçilik tam tənəzzül dövrünü yaşamışdı. 1990-cı illərdə kəlağayı istehsalı dayandırılmışdı. 2002-ci ildən etibarən tədqiqatçı C.Tarıverdiyevin rəhbərliyi ilə araşdırmaçılar və ustalar, rəssamlar və dizaynerlər, o cümlədən kəlağayı həvəskarları tətrəfindən gərgin iş aparılmışdı. 2004-cü ildə C.Tarıverdiyev və R.İbrahimbəyovanın "Bəsləsən, ipək olar" kitabı çapdan çıxmışdır. Toplanmış məlumatlar əsasında 2015-ci ildə kəlağayı konsepsiyası işlənib hazırlanmışdır.

### Kəlağayı UNESCO-nun reprezentativ siyahısında

Bu gün kəlağayıya yeni nəfəs verilir. O, ta qədimdən Azərbaycan qadınlarının gözəllik simvoluna çevrilib. Yüzillərdir ki, birlikdə yol gəlirik. Ən xoş, sevincli günlərimizdə onu gah başımıza bağlamışıq, gah boynumuza salıb üstümüzdə gəzdirmişik. Qadınlarımız təkraredilməz gözəlliyə malik ənənəvi baş örtüyünün bu qədər xoş, məhrəm olduğunu dəfələrlə görmüş və duymuşlar.

Kəlağayı fenomeninin tarixi və mədəni dəyərini təsdiq edən bir fakta nəzər salaq: 2014-cü il noyabrın 26-da Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmişdir. Ölkəmizin mədəniyyət siyasəti Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanın mədəni irsinin mühafizəsinə yönəlmiş səyləri kəlağayını əsl mənada "yox olmaqdan" qorumuş və onun gələcəyinə inam doğurmuşdur. Nəticədə minilliklər boyu tarixin sınaqlarından çıxan xalqımız daha bir uğura imza atmışdır. Bu sənət Azərbaycan xalqının milli-mənəvi dəyərlər sisteminin ən mühüm mədəniyyət nümunələrindən biri kimi beynəlxalq səviyyədə təsdiq olunmuşdur.

2005-ci ildə ölkəmizdə kəlağayıya aid ilk sərgi keçirilmişdir. Sonralar Azərbaycan kəlağayısı Türkiyə, Gürcüstan, Macarıstan, Avstriya, İtaliya, ABŞ, Belçika, Malayziya və digər ölkələrdə müxtəlif sərgilərdə nümayiş olunmuşdur. Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, kəlağayı milli mədəniyyətimizin səciyyəvi etnik xüsusiyyətlərinə malik bir məfhumdur. Xalq tətbiqi sənətinin ən gözəl, möhtəşəm nümunəsidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Layihə

# Gəlin teatra gedək...

**Teatr mədəniyyətin vacib sahəsidir. Əvvəlki dönəmlərdə axşam işdən çıxan insanlar dincəlmək və mənəvi zövq almaq üçün kinoteatrlara və teatrlara yollanardılar. Baxılan film və oynanılan tamaşalar insanlarda xoş əhval oyadardı. Tərbiyəvi əhəmiyyətə gəlincə, gənclər əsərlərdəki qəhrəmanlar kimi sevər, yaşlılar tamaşalardakı surətlər kimi uşaqlarına yaxınlaşardılar. Bəzən tamaşalara bilet belə tapmaq problemə çevrilərdi.**



Bu gün Sumqayıt Dövlət Dram Teatrının kollektivi tamaşaların təbliği yönümündə bir neçə tanıdıcı və maarifləndirici xarakter daşıyan layihələr gerçəkləşdirir. Kollektiv layihəni "Gəlin teatra gedək..." adlandırıb.

"Gəlin teatra gedək..." devizi ilə gənc və orta yaş nəsil nümayəndələrinin həftəsonu istirahətlərinin bir neçə saatını məhz teatra ayırmalarını təmin etmək məqsədilə öz repertuarını dəqiqləşdirib. Yeni layihə çərçivəsində hazırlanan repertuar planı təsdiqlənib. Repertuar planı barədə şəhərin bütün sosial təbəqəsindən olan insanları məlumatlandırmaqdan ötrü əhalinin sıx toplaşdığı məkanlarda, ictimai nəqliyyatda, sosial şəbəkələrdə reklam çarxları yayımlanır. Sosial media platformalarında davamlı olaraq teatrsevərlərin qatıldığı "könüllülər" qrupunda aparılan kampaniyalar da müsbət nəticələrini verməkdədir. Sumqayıt bulvarında, şəhər avtovağzalında qonaqlara paylanan reklam vərəqələri insanları teatra dəvət edir.

Beləliklə, yeni layihəyə əsasən Sumqayıt Dövlət Dram Teatrında mütəmadi olaraq həftəsonları fərqli janrda tamaşalar nümayiş etdiriləcək. Layihə çərçivəsində Con Patrik "Qarını öldürməliyik?" psixoloji dramında rolları əməkdar artistlər İlahə Səfərova, Rauf Ağakişiyev, Sədaqət Nuriyeva, İzaməddin Bağırov, Cəlal Məmmədov və aktyor Yalçın Səlimov ifa edirlər. Tamaşanın quruluşçu rejissoru Tatyana Şevçenko, quruluşçu rəssamı Yelena Karpenkodur.

Xalq artisti Firudin Məhərrəmovun quruluşunda Turqut Özakmanın "Ocaq" əsərinin səhnə versiyası tamaşaçıların diqqətinə çatdırılıb. Tamaşada əməkdar artistlər Xatirə Süleymanova, Fəranə Musayeva, aktyorlar Şəhla Məmmədova, Şəmistan Süleymanlı və Oktay Mehdiyev rol alıblar.

Məktəblilərin tətil günlərində tamaşaçıların sayının çoxalacağı nəzərə alınıb. M.F.Axundzadə, Con Qolsuorsi, Elçin, Əziz Nesin, Əli Əmirli, Nizami Muradoğlu və digər yazıçıların əsərləri səhnə həyatı tapacaq. Biletlərin tam satılacağı zamanda daha bir seansın əlavə olaraq göstərilməsi qərara alınıb. Teatrın direktoru, əməkdar artist Mübariz Həmidov layihənin uğurla nəticələnəcəyinə əminliyini bildirib. O öz fikrini belə tamamlayıb: "Artıq ilkin nəticələr var. İlin əvvəlindən teatrımızda göstərilən əsərlər tamaşaçıların alqışlarını qazanıb. Təbliğat kampaniyasında sumqayıtlılar tamaşalara gələcəklərini bildiriblər. Tamaşaların maraqlı olacağına isə kollektivlə zəmanət veririk".

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Milli sərvətimiz

# Nadir kitablar



**M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında 1962-ci ildə yaradılan Nadir kitablar bölməsi 2013-cü ildə şöbə statusu almışdır. Hazırda Nadir kitablar muzey şöbəsi kimi fəaliyyətini davam etdirir.**

Dilindən, əlifbasından, nəşr yerindən asılı olmayaraq xalqların minillik elm və mədəniyyət tarixini əhatə edən 5 000 kitab şöbənin nadir xəzinəsidir. Bu xəzinənin ən qədim nəşri 1573-cü ildə latın və yunan dillərində nəşr olunmuş "Homerlə Hesiodun mübahisəsi", 1595-ci ildə alman dilində nəşr edilmiş "Türklər haqqında 10 nəsihət" kitablarıdır. Qotik ədəbiyyatla yanaşı, dünya mədəniyyəti xəzinəsini zənginləşdirən Azərbaycanın dahi filosof şairləri Xaqani Şirvaninin "Külliyyati-Xaqani", Nizami Gəncəvinin "Xəmsə" (1845), Məhəmməd Füzulinin "Leyli və Məcnun" (1858) daşbasma nəşrləri də yer almışdır.

Orta əsrlər dövrünün ən məşhur təbiblərindən olan İbn Sinanın ərəb dilində "Qanun ət-Tibb" (1878), fars ədəbiyyatının görkəmli şəxsiyyətləri Firdovsi, Ömər Xəyyam, Sədi Şirazi, Hafiz Şirazi kimi dühaların da daşbasma nəşrləri qorunur. Şöbənin fondunda müəlliflərin sağlıqlarında nəşr olunmuş ədəbiyyat kolleksiyası da nümayiş etdirilir. Bu kolleksiyaya dahi rus şairi A.S.Puşkinin "Puqaçov üsyanının tarixi" (1834), görkəmli Azərbaycan şairi və ictimai xadimi Abbasqulu ağa Bakıxanovun "Kratkaya qrammatika persidskoqo yazıka" (1841), rus şərqşünaslıq elminin banisi Mirzə Kazım bəyin "Müxtəsərül-vikayət..." (1845), Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin "Komedii" (1853) kitabları daxildir.

Şöbənin fondunda həmçinin Rusiya imperiyasında Azərbaycan dilində ərəb qrafikası ilə 1779-cu ildə nəşr olunmuş "Məzidi-izzət və müqəddəs cənublu mübaliğə ilə hökmdari-padşahi-əzəmi-imperatoriçə Yekaterina saniyə həzrətlərinin cəmi Rusiyyə imperiyasında əyalətlərin nizam və tərtibi üçün icad və imla olunmuş qanuni-cədiddir" kitabı saxlanılır.

Şöbənin fondunda miniatür kitab kolleksiyası da nümayiş etdirilir. Bu kolleksiyanın ən kiçik formatlı kitablarından M.Y.Lermontovun "Parus" (2012, 20x16mm) və V.Bakaldinin "Moy Baku" (2013, 22x17mm) kitablarını göstərə bilərik.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***



● Dünyanın yeddi möcüzəsi

# Rodos nəhəngi

**Dünya özü başdan-başa möcüzədir. Hər günü bir başqa havada, fərqli bir çalarda, hər gülü, çiçəyi bir ayrı qoxuda... Bu dünyanın qeyri-adilikləri sayıldıqca bitməz, xarüqələdə gözəllikləri baxıldıqca doyulmazdır.**

İnsan zəkası bu fövqəladə dünyanı yeni gözəlliklərlə bəzəyir. Bəzən isə bəşər övladının düşüncələri, əməyi ilə qurulduğu heyrət doğuran əsərlər ortaya çıxır. Görünür, insan ağlı, idrakı çox mümkünsüzləri gerçəkləşdirməyə qadirdir. İnsan əli ilə yaradılan belə möcüzələrin ən qədimlərinin sorağı isə antik dövrlərdən gəlir. Təbiət hadisələri, siyasət oyunları, qovğalar əksəriyyətini məhv etsə də, texnikanın inkişaf etmədiyi vaxtlarda necə yaradıldığı heyrət doğuran o abidələr unudulmadı. "Tarixin atası" Herodot, eləcə də bir sıra qədim tarixçilər və səyyahlar tərəfindən tərtib olunan məşhur qədim abidələrin siyahısına adları qədim dünyanın yeddi möcüzəsi kimi düşdü. Həmin siyahıda altıncı sırada yazılmış möcüzənin izləri bizi Rodos adasına aparır.

### Qələbə sevinci...

Gözəl təbiəti, qədim ab-havası ilə bu gün də diqqəti cəlb edən, açıq havada muzeyi xatırladan Rodos adası... Yunanıstanın Aralıq və Egey dənizinin suları ilə əhatələnən bu adanın paytaxtı Rodos şəhəridir.

Antik dövrdə təsərrüfat, sənət və ticarət inkişaf etmiş Yunanıstanda bir sıra şəhər-dövlətlər yaranmışdı. Şəhər-dövlətlərin sistemi torpaqlarda hakim idi. Milet, Samos, Efes kimi, Rodos da şəhər-dövlət idi. Belə vəziyyət Rodosun iqtisadi cəhətdən möhkəmlənməsinə də şərait yaratdı. Misirlə aparılan ticarət əlaqələri genişləndi və inkişaf etdi. Ancaq Makedoniyalı Antigonidlerin miladdan əvvəl 305-ci ildə Misirlə olan birliyi və münasibətləri pozmaq naminə şəhəri mühasirəyə almaq cəhdləri müharibənin başlanmasına səbəb oldu.

Miladdan əvvəl III əsrdə bu adaya hücum edən sərkərdə Demetri yerli əhalini məğlubiyyətə uğrada bilmədi. Adanı yadellilərə verməyən rodoslular qələbə sevincindən vəcdə gəldilər. Onlar adanın müdafiəsi şərəfinə dünyanın ən böyük heykəlini ucaltmaq qərarını verdilər.

Miladdan əvvəl 304-cü ildə sülh şəraitində hərbi materiallar əridilməyə başlandı. Həmin materiallardan Rodos heykəlinin tikintisinə başlandı. Bu böyük iş - nəhəng abidənin yaradılması antik dövrün məşhur heykəltəraşı Lissipin şagirdi Xaresə etibar edildi. Xares abidəni on iki ilə hazırladı.

Heykəl üçün gözəgörümlü yer seçildi. Ancaq Rodos nəhənginin dənizlə şəhər darvazaları arasındakı bazar meydanında qoyulması yeganə məlumat deyil. Əzəmətli abidənin limanın girəcəyində ucaldığı barədə də xəbərlər günümüzə qədər gəlib çatıb. Deyilənə görə, Rodoslu Kolossun heykəli o qədər iri idi ki, ayaqlarının arasından limana gəlib-gedən gəmilər keçirdi. Roma ədəbiyyatında da Rodos nəhəngi belə rəvayət olunurdu.

### Rodosluların himayəçisi

Hündürlüyü 36 metr olan tunc heykəldə günəş allahı Helios təsvir edildi. Rodos əhalisi onu öz himayəçisi hesab edirdi. Gənc oğlan kimi təsvir olunan abidənin başını günəş şüalarının rəmzi sayılan nurlu bir tac bəzəyirdi. Bu işıq saçan allah Rodos adasından neçə-neçə kilometr uzaqdan görünürdü. Nəhəng heykəl Rodos adasındakı insanlar üçün birliyin simvolu oldu.

Çox keçmədi ki, bu heykəl barədə xəbərlər dünyanın hər yerinə yayıldı. Ancaq şöhrəti dillərə düşmüş Rodoslu Koloss abidəsi cəmi 66 il mövcud oldu. Belə ki, miladdan əvvəl 225-ci ildə Rodos adasını sarsıdan dəhşətli zəlzələyədək rodoslulara qürur verən nəhəng Rodos ayaq üstə möhkəm dayandı. Həmin il baş verən zəlzələ nəticəsində şəhərin böyük hissəsi dağıldı. Heykəlin ayaqları sındı və yıxıldı. Rodoslular nəhəngi ayağa qaldırmağa çox səy göstərdilər. Xeyirxah qonşularının bu işdə onlara kömək etmək istədiyi də məlumdur. Misir hökmdarı bir neçə yüz talantlıq mis, bir də ustalar göndərdi. Amma vəziyyət dəyişmədi. Bir məlumata görə də, rodoslular şəhərin yenidən qurulması və heykəlin bərpası üçün Misir hökmdarından istədikləri yardımı bir kahinin yaydığı dedi-qodu səbəbindən almadılar. Tarixçi Strabonun məlumatına görə, abidəni rodoslular "baxıcı" məsləhəti ilə qaldırmadılar.

Nəhəng heykəl düşdüyü yerdə, adanın əsas görməli yeri olan kiçik körfəzin sahilində qaldı. Miladın I əsrində Rodosa gedən Böyük Plini abidəni bu vəziyyətdə gördü. Tək bircə baş barmağını iki əl ilə qucaqlamaq mümkün olan heykəlin əzəməti Pliniyə çox maraqlı və qeyri-adi göründü. Zaman keçdi. Nəhəng Rodos qaldığı yerdə paslandı, haqqında isə saysız-hesabsız rəvayət uydurmaqda davam etdilər.

Heykəl dənizin sahilində yıxılmış vəziyyətdə min il qaldı... 653-cü ildə ərəblər Rodosu fəth etdilər. 997-ci ildə kasıblaşmış ərəb canişini onu bir tacirə satdı. Tacir heykəli əritmək üçün doğrayıb hissələrə böldü. Qədim əlyazmalarda göstərilir ki, heykəlin hazırlandığı tuncun daşınması üçün 900 dəvə lazım olub.

Amma Rodoslu Kolossun tarixdən izləri silinmədi. Əlində tutduğu məşəllə limana gələn gəmilərin yolunu işıqlandıran Rodos nəhənginin yaddaşlarda yeri də işıqlı oldu.

*Bu gün azadlığın və Amerika Birləşmiş Ştatlarının (ABŞ) simvollarından biri olan Manhettendə, NyuYork limanında yerləşən neoklassik heykəl antik dövrün Rodos nəhəngini xatırladır. 1886-cı ildə ucaldılmış əsərdə təsvir olunan ayaq üstə dayanmış xələtli qadın Roma azadlıq ilahəsi Libertası təcəssüm etdirir. Qırılmış zəncir onun ayağının üstünə sərilib. Bir əlində üzərində ABŞ Müstəqillik Bəyannaməsinin elan edildiyi 4 iyul 1776-cı il tarixinin yazıldığı tabula ansata - qanunların yazıldığı tablet tutub. Azadlıq heykəlinin digər əlində isə Rodoslu Koloss kimi azadlıq məşəli var.*

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# “Hematologiyada yeni texnologiyalar və onların klinik əhəmiyyəti” mövzusunda elmi-praktik konfrans keçirilib





Martın 2-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında “Hematologiyada yeni texnologiyalar və onların klinik əhəmiyyəti” mövzusunda elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən universitetin rektoru, professor Əziz Əliyev konfransın Milli Onkologiya Mərkəzi və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının birgə təşkilatçılığı ilə keçirildiyini deyib. “Milli Onkologiya Mərkəzində çox böyük nailiyyətlər əldə edilir. Ötən il mərkəzdə təxminən 106 mindən çox xəstə müayinə olunub. Onlardan təqribən 65 faizi onkoloji xəstəliklərlə bağlı olub. Mərkəzdə ən müasir laboratoriya fəaliyyət göstərir. Bu laboratoriyada təxminən 800 mindən çox test aparılıb. Bu da onkoloji xəstəliklərin erkən diaqnostikası və müalicəsi baxımından çox əhəmiyyətlidir.

Hematologiyada olan yeniliklər və onların təbabətdə tətbiqi çox önəmlidir. Ona görə də konfransın yüksək səviyyədə keçəcəyinə və aparılan fikir mübadiləsinin bu sahənin daha da inkişaf etməsinə öz töhfəsini verəcəyinə inanıram”, - deyən rektor konfransın işinə uğurlar arzulayıb.

Konfrans müxtəlif mövzularda məruzələrlə davam etdirilib. Türkiyənin İstanbul Sağlıq Bilimləri Universitetinin biokimya mütəxəssisi Cemal Kazezoğlunun “Extended IPU: Laboratuvar iş akışına katkısı”, Ege Universitetinin biokimya mütəxəssisi Güneş Başyolun “Anemi: Laboratuvar tanısı”, Sysmex-in aplikasiya mütəxəssisi Fidan Yılmazın “Floresan akım sitometrisi - hücrelere yakından bakmak”, Milli Onkologiya Mərkəzinin həkim-onkoloqları - Günel Ələsgərovanın “Kəskin limfoblast leykozun müalicəsinin nəticələri”, Elxan Kazımovun “Kimyaterapiya ilə əlaqəli sitopeniyalar”, Aytən Səfixanovanın “Xroniki limfoleykoz” mövzularında məruzələri dinlənilib və müzakirələr aparılıb.

# *İranlı deputat:* “Dağlıq Qarabağda məscidi tövləyə çevirənlərin İrana səfər etməsinə icazə verilməməli idi”



Dağlıq Qarabağ Azərbaycana məxsus bölgədir və Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşaraq işğalçılıqdan əl çəkməlidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində İran İslam Şurası Məclisinə (parlamentə) Urmiya şəhərindən seçilmiş deputat Hadi Bahaduri deyib. Deputat Ermənistan baş nazirinin Xocalı soyqırımının ildönümü ərəfəsində İrana səfərinə yol verildiyi üçün Xarici İşlər Nazirliyini kəskin tənqid edib.

O, İran İslam Respublikası Ali Rəhbərinin də mövqeyini xatırladaraq qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycan və İslam torpağıdır. İran Azərbaycan ilə münasibətlərinə xələl gəlməsini istəmir. İki qonşu və dost dövlət arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Xarici İşlər Nazirliyi bu səfərin Xocalı soyqırımının ildönümü ərəfəsində baş tutmasına icazə verməməli idi.

Deputat deyib: “Hesab edirəm ki, bu səfər başqa bir vaxtda da keçirilə bilərdi. Biz Ermənistanla həmsərhəd ölkələrik. Ona görə də bu ölkə ilə əlaqələrimizin olması təbiidir. Amma bu əlaqələr İranın rəsmi siyasətinə uyğun olmalıdır. Biz parlamentdə xarici işlər nazirinə sual ünvanlayacağıq. Nazirlik açıqlamalıdır ki, nə üçün İranın sərhədləri daxilində onun rəsmi siyasətinin əleyhinə belə bir hadisə baş verib?”

Hadi Bahaduri vurğulayıb ki, dini inancımıza görə, dünyanın istənilən yerində müsəlmanların haqqı müdafiə olunmalıdır: “Dağlıq Qarabağda müsəlmanların məscidini tövləyə çevirənlərin İrana səfər etməsinə icazə verilməməli idi”.

# IDEA İctimai Birliyi gənclər arasında sağlam qidalanmanın təbliğatına başlayır



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə orta məktəblərdə sağlam qidalanmanın təbliğatı üzrə layihəyə start verilib.

Belə ki, IDEA İctimai Birliyi tərəfindən gənclər arasında sağlam və məsuliyyətli qida istehlakı vərdişlərinin təbliğ edilməsi məqsədilə Bakının orta məktəblərinin yuxarı sinif şagirdləri üçün bu mövzuda maarifləndirici təqdimatlar təşkil ediləcək. İctimai Birlikdən AZƏRTAC-a bildirilib ki, layihə Azərbaycan Gənclər Fondu, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və FAO-nun Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin dəstəyi ilə həyata keçirilir.

Məlumdur ki, düzgün və yetərli qidalanma insanların rifahı, xüsusən də gənclərin sağlam inkişafı, onların potensialının üzə çıxarılması üçün əsas şərtlərdən biridir. Eyni zamanda, məsuliyyətli və dayanıqlı ərzaq istehlakının ətraf mühitin qorunması və nəticə etibarilə gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi baxımından vacibliyi də qeyd olunmalıdır.

İlk təqdimatlar Heydər Əliyev adına Müasir Təhsil Kompleksi və İlyas Əfəndiyev adına Elitar Gimnaziyada təşkil edilib. Təqdimatlar interaktiv və əyləncəli şəraitdə keçib, uşaqların geniş marağına səbəb olub. Şagirdlər sağlam pəhrizin nə olduğunu, pis qidalanmanın bədən və beynin inkişafına necə təsir etdiyini, məsuliyyətsiz istehlakçılığın planetimizə necə təsir etdiyini öyrənib və digər faydalı məlumatlar əldə ediblər.

Son illər Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə respublikamızda ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf sahələrində çoxsaylı layihələr həyata keçirilir. IDEA İctimai Birliyi tərəfindən Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin Azərbaycanda təşviq edilməsi üzrə UNDP, FAO, UNICEF və s. tərəfdaşlarla birgə tədbirlər həyata keçirilir, gənclərin məktəb yaşlarından başlayaraq dayanıqlılıq haqqında məlumatlandırılması və Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində onların rolunun artırılması məsələsinə xüsusi diqqət yetirilir.

IDEA İctimai Birliyi uşaqları orqanizm üçün çox zərərli “fastfud”ların əvəzinə sağlam qidaya üstünlük verməyə, valideynləri isə övladlarının sağlam və düzgün inkişafı naminə bu mövzuda diqqətli olmağa çağırır.

# Kürdəmir-Qrobinya əlaqələri genişlənir



Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənovla birgə Latviyada səfərdə olub.

Latviya Yerli Özünüidarəetmə Orqanları Assosiasiyası və Qrobinya bələdiyyəsinin dəvəti ilə reallaşan səfərin ilk günündə qonaqlar və Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov assosiasiyanın sədri Gints Kaminskis və Latviyanın ətraf mühitin qorunması və regional inkişaf naziri Yuri Pudse ilə görüşüblər.

Görüşdə bildirilib ki, Azərbaycan ilə Latviyanın yerli özünüidarəetmə orqanları arasında 10 ildir ki, uğurlu əməkdaşlıq aparılır. Tərəflər birgə təcrübədən faydalanmaqla əməkdaşlığın daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

Səfir Cavanşir Axundov son illərdə ölkəmiz tərəfindən aparılan və ikitərəfli münasibətlərin inkişafına yönəlmiş məqsədyönlü tədbirlər barədə məlumat verib. O, Avropada ilk Azərbaycan Ticarət Evinin Latviyada açıldığını diqqətə çatdırıb, əmtəə dövriyyəsinin artırılmasının vacibliyini vurğulayıb.

Nazir Y.Putse ölkələrimiz arasındakı münasibətlərin səviyyəsindən məmnunluq ifadə edib, bu münasibətlərin daha da inkişaf etdirilməsinin vacib olduğunu deyib.

Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənov bu il yerli hakimiyyətlər və bələdiyyələr arasında əməkdaşlığın 10 ilinin tamam olduğunu qeyd edərək, bu cür tədbirlərin keçirilməsinin, birgə kitabın hazırlanmasının və digər layihələrin reallaşdırılmasının zəruriliyini vurğulayıb.

Görüşdən sonra Azərbaycan nümayəndə heyəti Qrobinya vilayətinə səfər edib. Qrobinya vilayəti və Kürdəmir rayonu arasında qarşılıqlı əməkdaşlıq haqqında protokol imzalanıb.

Protokolda hər iki şəhər arasında təcrübə mübadiləsi, sosial-iqtisadi, turizm, mədəniyyət, biznesin inkişafı və digər sahələrdə əməkdaşlıq, sosial və ekoloji inkişaf proqramının reallaşmasına hazırlıq mərhələləri öz əksini tapıb.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov imzalanan protokolun əhəmiyyətini qeyd edib, Azərbaycanda sosial-iqtisadi sahələrdə qazanılan uğurlar, respublikanın bölgələrinin sürətli inkişafı, yeni sosial layihələrin icra edilməsi barədə məlumat verib.

Qrobinya vilayətinin rəhbəri Ayvar Priedols bildirib ki, əsas məqsəd qarşılıqlı əməkdaşlığın gücləndirilməsidir: “Bu sənədlə biz xalqlarımız arasındakı əlaqələri də inkişaf etdirməyi nəzərdə tutmuşuq. Buraya məktəblilərin hər iki ölkəyə qarşılıqlı səfərlərinin təşkili, sərgilər və digər oxşar tədbirlərin keçirilməsi daxildir. Bununla, hər iki xalq bir-birini daha yaxından tanıyacaq”. Ayvar Priedols, həmçinin vurğulayıb ki, rəhbərlik etdiyi vilayət Azərbaycanın iqtisadi uğurlarını öyrənməkdə maraqlı olmaqla yanaşı, öz təcrübələrini bölüşmək niyyətindədir.

Qrobinyaya səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti Qrobinya gimnaziyası, yerli çörəkbişirmə və süd-pendir məhsulları kombinatlarındakı iş prinsipi ilə tanış olublar.

*“Azərbaycan”*

# Azercell ilə rəqəmsal dünyanın yenilikləri daha əlçatan olacaq



Fevral 25-28-də İspaniyanın Barselona şəhərində qabaqcıl texnologiyaları sərgiləyən, eləcə də sənayeyə təsir edən ən qızğın mövzuları müzakirə etmək üçün mütəxəssisləri bir araya gətirən “Mobil Dünya Konqresi” (“Mobile World Congress” - MWC) keçirilmişdi. 2400-dən çox aparıcı telekom şirkətlərinin iştirak etdiyi dünyanın ən möhtəşəm mobil tədbirinə ölkədə rabitə sahəsinin inkişafına hər zaman öz töhfəsini verən, Azərbaycanın lider mobil operatoru “Azercell Telecom” MMC mütəxəssislərinin iştirak etdikləri bu sərgi texnoloji yeniliklərin tətbiqini nəzərdə tutan rəqəmsal eraya operatorun infrastrukturunu hazır etmək, texniki və biznes imkanlarını genişləndirmək üçün yeni əməkdaşlıqlar qurmaq, maraqlı təcrübələrdən bəhrələnmək, innovativ tendensiyaları tezliklə ölkəyə gətirmək və ümumilikdə dünya telkosunun ritmini və vizyonunu hiss etmək baxımından faydalı təcrübə bəxş edib.

MWC sərgisi gələcəyi formalaşdıran həll yollarını araşdırmaq, çağırışları müzakirə və tədqiq etmək, eləcə də əyani surətdə bu texnologiyaların insan həyatının əyləncə, nəqliyyat, ictimai xidmətlər, sənaye, veb və bulud bağlantısı da daxil bütün aspektlərinə necə böyük bir təsirə malik olmasını müşahidə etmək imkanı təqdim edir.

200 ölkənin 107 mindən artıq nümayəndəsinin iştirak etdiyi sərgidə bir sıra aparıcı şirkətlər “5G”, “Əşyaların İnterneti” , “Mobil Qoşulma”, “Ağıllı Bağlantı”, “Süni İntellekt”, “İnkişaf üçün Mobil” mövzularına əsaslanan programlarını nümayiş etdirdilər.

MWC sərgisi ilə bağlı öz təəssürat və fikirlərini Azercell şirkətinin prezidenti Vahid Mürsəliyev “Technote” şirkətinin rəhbəri Fərid Pərdəşünasla olan müsahibəsində bölüşüb. Müsahibəni bu linkdən izləyə bilərsiniz: https://www.facebook.com/azercell/videos/1984835524979338/

*“Azərbaycan”*

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli, Bala Cəfərli, Tovuz rayonunun Ağdam, Koxanəbi, Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Şirvanlı, Sarıcalı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Ov mövsümü martın 10-da başa çatacaq

Azərbaycanda 2018-2019-cu il üzrə ov mövsümü martın 10-da başa çatacaq. Hazırda su-bataqlıq quşlarının ov mövsümüdür. Ov limiti artıq bitmək üzrədir. 2019-2020-ci il üzrə ov mövsümü isə mayın sonlarında başlayacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə məlumat verib.

# Beynəlxalq aləm

## Aİ Brexit sazişində Londona güzəşt edəcək



Avropa İttifaqı (Aİ) Böyük Britaniyanın Aİ-nin tərkibindən çıxması (Brexit) strategiyası ilə bağlı güzəştə getməyə hazırdır. Bu barədə Aİ-nin Brexit danışıqlarında nümayəndə heyətinin başçısı Mişel Barnye məlumat vermişdir.

Barnyenin dediyinə görə, Aİ dövlətləri müəyyən şərtlərlə Brexitin vaxtının uzadılmasına razılıq verə bilər. Xüsusilə bu uzadılmanın məqsədi aydın olmalıdır.

Bundan əlavə, Aİ nümayəndə heyətinin başçısı Londonun Backstopla bağlı narahatlığı mövzusuna da toxunmuşdur. Aİ-nin üzvü olan İrlandiya ilə Böyük Britaniyanın Şimali İrlandiya bölgəsi arasında gömrük və sərhəd nəzarətinin bərpasına yol verməmək üçün Aİ bu mexanizmin tətbiqinə təkid edir. Bununla bağlı Barnye demişdir: “Biz bilirik ki, Böyük Britaniyada Backstopla bağlı narahatlıq var. Onların fikrincə, ölkə həmişəlik Aİ-yə bağlana bilər. Lakin bu, belə deyil. Aİ Backstopun müvəqqəti tədbir olması ilə bağlı təminatlar və izahatlar verməyə hazırdır”.

Bundan əvvəl Böyük Britaniya parlamenti Baş nazir Tereza Meyin təklifi ilə Brexitin təxirə salınmasının mümkünlüyünü qəbul etmişdir. Parlamentarlar yenidən “sərt” Brexitə qarşı səs versələr, martın 14-də onlar Birləşmiş Krallığın Aİ-dən çıxmasının təxirə salınması barədə səsvermədə iştirak edə bilərlər.

KİV-in xəbərinə görə, güman ki, Brüssel Böyük Britaniyanın Aİ-dən çıxmasını iki il təxirə salmağın mümkünlüyü məsələsinə baxır. Əslində Brexit bu il martın 29-da baş tutmalıdır.

## ABŞ PKK-nın terrorçu statusunu təsdiqlədi



ABŞ PKK-nı xarici terrorçu təşkilatlar siyahısında saxlamışdır. Bu barədə Dövlət Departamenti məlumat verir.

Məlumatda qeyd olunur ki, PKK 20 ildən artıqdır antiterror siyahısındadır və ABŞ Türkiyə, habelə digər müttəfiqləri ilə birgə həmin müddət ərzində bu təhlükə ilə mübarizə üçün əlindən gələni etmişdir. Sənəddə deyilir ki, “PKK terrorçu təşkilatlar siyahısında qalacaq. Bundan əlavə, 2001-ci ildə PKK həm də qlobal terrorçu ünsürlər siyahısına daxil edilmişdir”.

ABŞ hər beş ildən bir xarici terrorçu təşkilatların siyahısını yeniləyir. Siyahıya son dəfə 2013-cü ildə baxılmışdır.

## Səudiyyə Ərəbistanı ben Ladenin oğlunu vətəndaşlıqdan məhrum etdi



Səudiyyə Ərəbistanı “əl-Qaidə” terrorçu təşkilatının sabiq başçısı Üsamə ben Ladenin oğlu Həmzə ben Ladeni vətəndaşlıqdan məhrum etmişdir. Bu barədə “Umm al-Kura” rəsmi hökumət qəzeti xəbər verir.

Məlumata görə, krallığın Daxili İşlər Nazirliyi müvafiq fərmanı hələ ötən ay dərc etmişdir.

Srağagün ABŞ Dövlət Departamenti Həmzə ben Ladenin yerini müəyyənləşdirməyə imkan verəcək informasiyaya görə 1 milyon dollar məbləğində mükafat elan etmişdir. Vaşinqton onu terrorçu qruplaşmanın liderlərindən biri hesab edir. Dövlət Departamentinin məlumatına görə, Həmzə ben Laden 2015-ci ilin avqustundan bəri tərəfdarlarını ABŞ-a və onun Qərbdəki müttəfiqlərinə hücumlar etməyə çağırırdı. O, 2011-ci ildə ABŞ xüsusi təyinatlılarının atasını öldürməsinin qisasını almaq istəyir. Bundan əlavə, terrorçunun oğlu Səudiyyə Ərəbistanı hökumətini devirməyə çağırırdı.

## Meksikada 74 miqrant cinayətkarların əlindən alındı




Mərkəzi Amerika ölkələrindən olan 74 miqrant Meksikanın şimalında yerləşən Nuevo-Leon ştatında cinayətkarların əlindən alınmışdır. Bu barədə ştatın baş prokurorluğu məlumat vermişdir.

Miqrantlar qanunsuz olaraq Apodako bələdiyyəsindəki evlərin birində saxlanılırmışlar. Bu barədə hüquq mühafizə orqanlarına telefonla naməlum şəxs məlumat vermişdir. Azad olunmuş miqrantlar arasında 31 uşaq da var. Onların əksəriyyəti Honduras vətəndaşıdır.

Mərkəzi Amerika ölkələrindən gəlmiş miqrantların ABŞ sərhədinə çatdırılması üzrə qeyri-leqal biznes Meksikada xeyli inkişaf etmişdir. ABŞ ərazisinə keçmək istəyən hər adamdan bir neçə min dollar alınır. Lakin onlara yolda heç bir şərait yaradılmır və sərhədi keçmək təminatı verilmir.

## Malidə 9 hərbçi minaya düşdü

Mali hökumət ordusunun 9 hərbi qulluqçusu minaya düşüb həlak olmuşdur. Bu barədə “Frans Press” agentliyi xəbər verir.

Hadisə Mopti regionunun Bulkessi yaşayış məntəqəsində baş vermişdir. Bundan əlavə, daha bir neçə adam yaralanmışdır. Partlayışın baş verdiyi Bulkessi son vaxtlar ekstremistlərin fəallığının kəskin şəkildə artdığı Burkina-Faso ilə sərhədin yaxınlığında yerləşir. Mali hökumətinin yerli nümayəndələrindən birinin dediyinə görə, terrorçular sülhün bərpa olmasına maneçilik törətmək məqsədilə cinayətlərini davam etdirirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8599
Sifariş 702
Qiyməti 40 qəpik